Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

10
APREL
2019-cu il
№ 63 (3961)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# AZƏRBAYCANDA «KÖLGƏ İQTİSADİYYATI»... 4 İLDƏ ONU 5 FAİZ AZALTMAĞIN ÜSULU...

■ səh. 11 ■

Məşhur Fransa şirkəti İlham Əliyevin bir ildəki fəaliyyətini dəyərləndirən rəy sorğusu keçirdi

■ səh. 3 ■

Ordumuz Ermənistana yeni aprel dərsləri keçməli olacaq...

■ səh. 9 ■

Paşinyan aprelin 11-də AŞPA-da ölkəmizə qarşı "ksenofobiya və dözümsüzlük" iftiraları yağdırmağa hazırlaşır...

■ səh. 7 ■

Dünya yeni maliyyə savaşı ərəfəsində - Səudiyyə Ərəbistanında gizli antidollar müzakirələri...

■ səh. 7 ■

Xaric edilən partiya üzvü Müsavatda illik 300 min avro "mühacir saxtakarlığından" danışır...

■ səh. 4 ■

Kartof və soğanın ixracına rüsum qoyuldu, bazarlarda qiyməti izləyin...

■ səh. 12 ■

MTK-lar mənzil haqlarını qaldırır - "Kristal Abşeron" necə izah verir...

■ səh. 12 ■

Mobil internet "can verə-verə" işləyir - mühüm ərəfədə Azərbaycana turist axınına mane olan səbəblərdən biri...

■ səh. 15 ■




## Fransız texnologiyası, Azərbaycan gerçəkliyi və Prezidentin canlı təmaslarından «partlayış» gözləyənlər...

■ səh. 8 ■



«Xüsusi zərbə qüvvələrimiz Azərbaycanın içində hər vaxt xaos yarada bilər» - erməni nazirin qorxudan doğan isteriyası...

■ səh. 6 ■

Bəzi ərəb ölkələri üçün Ermənistanla maddi maraqlar Quran və məscidlərdən üstün imiş...

■ səh. 5 ■



Ukrayna Azərbaycandan bəhrələnir, Kiyevin mərkəzində isə erməni canilərə «aprel qəhrəmanları» adı ilə heykəl qoydurur...

■ səh. 4 ■

NATO - Azərbaycan yaxınlaşmasını istəməyən Aylans üzvü (?)...

■ səh. 5 ■



Paşinyanın arvadı Bostan ermənilərindən cəmi 150 min dollar ianə toplaya bildi - erməni icmasının soyuqluğuna yeni sübut...

■ səh. 6 ■



Yunus Oğuz "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən görkəmli sərkərdə" adlı beynəlxalq elmi konfransda sanballı çıxış etməyə hazırlaşır

■ səh. 10 ■



Suraxanıdakı 1 saylı peşə məktəbində məskunlaşmış köçkünlərlə komitə arasında nə baş verir...

■ səh. 13 ■



Sabunçu-Maştağa yolundakı "Ayxan" market yol hərəkətini iflic edir...

■ səh. 13 ■



## Prezidentin tapşırığı ilə Azərbaycan İrana bir milyon manata yaxın humanitar yardım göndərir...

**Prezident İlham Əliyevin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyi Azərbaycan Hökuməti adından İranda aramsız yağan yağışlar nəticəsində baş vermiş təbii fəlakətlə əlaqədar bu ölkəyə humanitar yardım yola salacaq.**

Bu barədə baki-xeber.com-a Fövqəladə Hallar Nazirliyindən məlumat verilib.

Qeyd edilir ki, hazırda ümumi dəyəri 950 min manat olan humanitar yardımın yola salınması üçün müvafiq hazırlıq işləri görülür.

Qeyd edək ki, baş vermiş təbii fəlakət insan itkisi və dağıntılara səbəb olub, infrastruktura ciddi ziyan dəyib.

## Azərbaycan Müdafiə Nazirliyi vətəndaşlara və KİV nümayəndələrinə müraciət etdi



**Müdafiə Nazirliyi vətəndaşlara və KİV nümayəndələrinə müraciət edib.**

Nazirlikdən baki-xeber.com-a verilən məlumata görə, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən ordu ilə xalq arasında əlaqələrin daha da möhkəmləndirilməsi, ictimaiyyət nümayəndələrinin hərbi hissələrdə həyata keçirilən quruculuq işləri, eləcə də valideynlərin övladlarının xidməti şəraiti ilə əyani şəkildə tanış olmaları məqsədilə Müdafiə Nazirliyi tərəfindən mütəmadi olaraq tədbirlər həyata keçirilir. Görülən bu işlər xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Lakin son günlər müxtəlif ictimai və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin hərbi hissələrə, xüsusilə də ön xətdə yerləşən bölmələrə səfərlərindən sonra ayrı-ayrı vətəndaşlarımızın mobil telefon, videokamera və fotoaparat vasitəsilə hərbi hissələrin ərazisində çəkdikləri kadrlar sosial şəbəkələrdə yayılır, müxtəlif şərhlər paylaşılır. Beləliklə də "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanunun müvafiq tələbləri pozularaq düşmənə Ordumuz barədə məlumatlar əldə etmək imkanı yaradılır.

Müdafiə Nazirliyi bildirir ki, hərbi hissələrin və ön xətt bölmələrimizin, xüsusilə də onların şəxsi heyətinin təhlükəsizliyi baxımından bu cür hallar yolverilməzdir.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın 10 milyonuncu sakininin valideynləri ilə görüşdülər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüblər.**

Baki-xeber.com-un prezident.az saytından əldə etdiyi xəbərə görə, dövlət başçısı və xanımı uşağın valideynləri ilə səmimi söhbət ediblər.



# AKP seçkilərin saxtalaşdırılması ilə bağlı yeni faktlar olduğunu iddia etdi

**Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası İstanbulda təkrar bələdiyyə seçkilərinin keçirilməsini tələb edir. "Trend"in məlumatına görə, bu barədə partiyanın sədr müavini İhsan Yavuz deyib.**

O qeyd edib ki, partiyada seçkilərin saxtalaşdırılmasını sübut edən faktlar var: "İstanbulda keçirilən bələdiyyə seçkilərində saxtalaşdırma ilə bağlı yeni faktları yaxın vaxtlarda təqdim edəcəyik".



Qeyd edək ki, AKP İstanbulun bütün 39 rayonunda bələdiyyə seçkilərinin nəticələrinə etiraz edib.

Xatırladaq ki, bundan əvvəl hakim partiyanın İstanbul bölməsinin rəhbəri Bayram Şenocak İstanbulda seçkilərin nəticələrinin müxalif Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədi Əkrəm İmamoğlunun xeyrinə saxtalaşdırılması ilə bağlı dəlillərə malik olduğunu bəyan edib.

**Ə.İmamoğlu seçkilərdə 4,159 milyon, AKP-nin namizədi Binəli Yıldırım isə 4,131 səs qazanıb.**

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

# Abunə!

## Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Bakıda yalançı "Azəriqaz" işçiləri peyda olub

*"Azəriqaz" abonentləri aldadan şəxslərlə bağlı xəbərdarlıq yaydı*

**"Azəriqaz" İstehsalat Birliyi abonentlərini aldadan şəxslərlə bağlı xəbərdarlıq yayıb.**




Birlikdən baki-xeber.com-a verilən məlumata görə, son günlər Bakı şəhərinin müxtəlif ünvanlarında, əsasən də Yasamal rayonu ərazisində özünü "Azəriqaz" İstehsalat Birliyinin əməkdaşı kimi təqdim edən şəxs və ya şəxslər mənzillərdə quraşdırılmış smart-kart tipli qaz sayğaclarının üzərinə vurulmuş xüsusi nömrəli plombun yenilənməsi, batareyasının dəyişdirilməsi və ya smart kartların "vaxtının keçməsi" kimi məsələləri bildirərək həmin "problemlərin" aradan qaldırılması üçün vətəndaşlardan müəyyən miqdarda pul tələb edir.

Eləcə də, inandırıcı olması üçün qeyri-qanuni akt tərtib edərək abonentlərə təqdim edirlər. Bununla bağlı istehlakçıların nəzərinə çatdırılır ki, Birliyin işçiləri mənzillərdə yerləşən qaz sayğaclarına profilaktik baxış və xidmət göstərəcəyi zaman "Azəriqaz" İstehsalat Birliyinin əməkdaşı olduğunu təsdiq edən xidməti vəsiqə təqdim etməlidir. Həmçinin öz xidməti vəsiqələrini təqdim etdikdən sonra yerlərdə göstərdikləri bütün xidmətlər ödənişsizdir və tərtib etdikləri xüsusi nömrəli aktlar isə sarı, qırmızı və göy rəngdə olmaqla üç nüsxədən ibarət tərtib olunaraq, qırmızı rəngli akt abonentə təqdim edilir. Sonda bir daha bildirilir ki, sadalanan qeyri-qanuni hallarla rastlaşan vətəndaşlar yaşadıqları ərazi üzrə müvafiq polis bölməsinə müraciət etməlidir.

***Baki-xeber.com***

# Məşhur Fransa şirkəti İlham Əliyevin bir ildəki fəaliyyətini dəyərləndirən rəy sorğusu keçirdi

**Beynəlxalq Mətbuat Mərkəzində Fransanın "Opinion Way" şirkətinin rəhbəri Brüno Janbar Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycanın bütün bölgələrində keçirilən rəy sorğusunun nəticələrini elan edib.**

"Bakı-Xəbər"in məlumatına görə, sorğu Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyətə, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahat kursuna, hökumətin daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə keçirilib.

Konfransda çıxış edən B.Janbar bildirib ki, 11 aprel 2018-ci il tarixində Azərbaycanda prezident seçkiləri keçirilib: "Seçkilərdə cənab İlham Əliyev seçici səslərinin 86,03 faizini qazanaraq ölkə rəhbəri seçildi. Şirkət olaraq Prezident İlham Əliyevin 1 illik prezidentlik müddətini qiymətləndirmək məqsədilə 2019-cu ilin fevral-mart aylarında Azərbaycan ərazisində 2000 respondent arasında ictimai rəy sorğusu həyata keçirdik. Sorğuda iştirak edəcək respondentlərin müəyyənləşdirilməsi çoxmərhələli seçmə metodologiyası əsasında aparılıb. "Ölkədə baş verən müsbət dəyişikliklərdən hansılarını Prezident İlham Əliyevin fəaliyyətinin uğuru kimi dəyərləndirirsiniz" sualına cavab verən respondentlər əsas 5 dəyişiklik kimi ölkədəki sabitliyi (80,1%), idmanın inkişafını (61,4%), ölkənin müdafiə qabiliyyətini, ordunun güclənməsini (58,4%), əhalinin güzəranının yaxşılaşmasını, əməkhaqları, təqaüdlər, müavinətlərin atmasını (57,8%), təhsil və səhiyyənin əlçatanlığını (52,0%) qeyd ediblər. Prezident İlham Əliyevin seçkiqabağı verdiyi vədlərin yerinə yetirilməsini qiymətləndirən respondentlərdən 26,2 faizi hamısının yerinə yetirildiyini, 49,4 faizi çox hissəsinin, 14,4 faizi vədlərin ancaq bir hissəsinin yerinə yetirildiyini, 5,8 faizi vədlərin yerinə yetirilmədiyini, 4,2 faizi isə cavab verməyə çətinlik çəkdiklərini qeyd ediblər. Sorğuya cəlb olunan respondentlərin 85,1 faizi Prezident İlham Əliyevin fəaliyyətini "müsbət", 6,8 faizi "mənfi" kimi qiymətləndirib, 8,1 faizi isə suala cavab verməyib. Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi korrupsiya əleyhinə mübarizə tədbirləri də cəmiyyət tərəfindən təqdir olunub. Bu suala respondentlərin 45,3 faizi "razıyam", 30,3 faizi "qismən razıyam", 20,3 faizi "razı deyiləm", 4,1 faizi isə "dəqiq bilmirəm" cavablarını verib".




Şirkət rəhbəri əlavə edib ki, sorğuda iştirak edən respondentlərin 51 faizini qadınlar, 48 faizdən çoxunu isə kişilər təşkil edib.

Sorğunu keçirən qurumun rəhbəri, həmçinin, bildirib ki, Prezidentin xarici siyasətinə respondentlərin 73,9 faizi "əla", 16 faizi "kafi", 2,4 faizi "pis" münasibət bəslədiklərini qeyd ediblər. Respondentlərin 7,7 faizi dəqiq bilmədiklərini söyləyib.

Respondentlərin 72,3 faizi düşünür ki, Prezident İlham Əliyevin qəbul etdiyi "Regionların inkişaf proqramı" və onun bölgələrə diqqəti nəticəsində regionlarımız inkişaf edib. 20,8 faizi "qismən inkişaf edib", 4,7 faizi "inkişaf etməyib", 2.2 faizi isə "dəqiq bilmirəm" cavabını verib.

Göründüyü kimi, "Opinion Way"ın sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan cəmiyyətinin Prezident İlham Əliyevə böyük etimad bəslədiyini bir daha təsdiq edir.

***Məhəmmədəli QƏRİBLİ***

# BMT Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz iqtisadi fəaliyyətləri ifşa edən konfrans keçirdi

**2019-cu il aprelin 9-da BMT-nin Cenevrə Bölməsində Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi BMT-nin Sülh Universiteti ilə birgə "Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlərin insan hüquqlarına təsirləri" mövzusunda beynəlxalq konfrans təşkil edib.**




Tədbiri açan Azərbaycanın daimi nümayəndəsi Vaqif Sadıqov tədbirin məqsədlərini açıqlayaraq, münaqişə zonalarında qeyri-qanuni fəaliyyətin insan hüquqlarına təsirindən danışıb.

Tədbirin həmtəşkilatçısı olan BMT-nin Sülh üzrə Universitetin rektoru Dr. Fernando Roxas Aravena açılış nitqi ilə çıxış edərək, sülhün olmadığı halda inkişaf və tərəqqinin olmayacağı və qeyri-qanuni fəaliyyətlərin artacağını vurğulayıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev açılış nitqində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində bu ərazilərdə qeyri-qanuni iqtisadi fəaliyyətlərin həyata keçirildiyi, resurslardan qeyri-qanuni istifadə edildiyi və məcburi köçkünlərin mülkiyyət hüquqlarının pozulduğunu qeyd edib. Bu xüsusda, bir sıra praktiki nümunələrə diqqəti çəkərək İsveçrənin tanınmış şirkəti "Frank Müller", eləcə də "Airbnb" şirkətinin qanunsuz fəaliyyətlərindən bəhs edib. O qeyd edib ki, Ermənistanın Azərbaycan ərazilərində həyata keçirdiyi qeyri-qanuni fəaliyyətlər münaqişənin danışıqlar yolu ilə həllinə xələl gətirir və münaqişənin uzanmasına xidmət edir. O, eyni zamanda Azərbaycanın münaqişə ərazilərində qeyri-qanuni fəaliyyətlər mövzusunun inkişafına və aktuallaşmasına fəal surətdə töhfə verdiyini vurğulayıb.

Konfrans İtaliya, İsveçrə, Niderland, Böyük Britaniya və Azərbaycandan müvafiq ekspertlərin iştirakı ilə iki işçi sessiya şəklində keçirilib. Tədbir zamanı həmçinin Anqola, Azərbaycan, Konqo Demokratik Respublikası və Syera Leonedə sözügedən sahədə mövcud olan vəziyyət bu ölkələrin nümayəndələri tərəfindən işıqlandırılıb.

Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətin və onun insan hüquqları üzərində təsirlərinin aradan qaldırılması ilə bağlı mövcud beynəlxalq hüquqi çərçivənin müzakirəsinə həsr edilmiş ilk sessiyada çıxış edən məruzəçilər münaqişə zonalarında qeyri-qanuni fəaliyyət göstərən şirkətlərə görə müvafiq dövlətlərin məsuliyyət daşıdığını vurğulayıblar. Çıxışlar zamanı bu sahədə məcburi xarakter daşıyan konkret instrumentin qəbul edilməsinin zəruriliyi qeyd olunub. Bu sessiyada həmçinin məruzəçilər tərəfindən Ermənistanın Azərbaycan ərazilərinin işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul olunmuş qətnamələr, Avropa İnsan Hüquqları Məhkəməsinin "Çiraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarı, işğal olunmuş ərazilərə qeyri-qanuni pul köçürmələri, insanların məskunlaşdırılması və digər məsələlər ilə bağlı fikilər səsləndirilib.

Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlə bağlı üçüncü tərəflərin öhdəliklərinə həsr edilmiş ikinci sessiyada isə məruzəçilər tərəfindən işğal olunmuş ərazilərdə yaradılan qeyri-qanuni rejimlərin tanınmaması ilə bağlı digər ölkələrin məsuliyyət daşıdığı qeyd edilib. Bu sessiyada "Azərkosmos" ASC tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində işğalçı ölkə Ermənistan tərəfindən qeyri-qanuni iqtisadi fəaliyyətin aparılması, ətraf mühitə ziyanın vurulması, meşələrin yandırılması və s. nümayiş etdirən peyk vasitəsilə çəkilmiş görüntülər təqdim edilib. Bu işçi sessiyada münaqişə zonalarında maddi-mədəni irsin dağıdılması məsələsi də müzakirə olunaraq, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan izinin silinməsi istiqamətində məqsədyönlü şəkildə siyasətin aparıldığı barədə məlumat verilib.

Tədbirdə Cenevrədəki BMT bölməsi yanında akkreditə olunmuş daimi nümayəndəliklər, mövzu üzrə tədqiqat aparan beynəlxalq hüquqşünaslar və qeyri-hökumət təşkilatlarından olan 120-dən artıq nümayəndə iştirak edib.

**Bu günlərdə Ukraynada Azərbaycanla münasibətlərə zərbə vuracaq hadisə baş verib. Məsələ ondadır ki, aprelin 5-də paytaxt Kiyev şəhərində 2016-cı ilin aprel döyüşlərində ölmüş ermənilərin xatirəsinə abidə ucaldılıb.**

# Ukrayna Azərbaycandan bəhrələnir, Kiyevin mərkəzində isə erməni canilərə "aprel qəhrəmanları" adı ilə heykəl qoydurur...

## *Əli Orucov: "Hesab edirəm ki, bu, rəsmi Kiyevin buraxdığı böyük siyasi səhvdir"*



*"Bununla bağlı Ukrayna rəhbərliyinə, paytaxt meriyasına müxtəlif səviyyələrdə etiraz edilməlidir"*

Abidənin qarşısına toplaşan erməni diasporunun nümayəndələri işğalçı əsgərləri anmaq üçün abidənin qarşısına güllər düzüb, şamlar yandırıblar.

Abidənin açılışında Ermənistanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Tiqran Seyranyan, Ukrayna Ermənilər İttifaqının sədr müavinləri David Mkrtçyan və Armen Vardanyan, Kiyev erməni icmasının rəhbəri Norik Gevorkyan, erməni kilsəsinin nümayəndələri və "Ukrayna erməniləri" Vətəndaş Platformasının təmsilçiləri iştirak ediblər. Kilsə mərasimindən sonra səfir Seyranyan media iştirakçılarına və erməni icmasına müraciət edib.

Ukrayna rəhbərliyinin ermənilərə belə bir imkan yaratması bütün mənalarda təəssüf doğurur. Ən azından, ermənilər sözügedən abidəni səfirliyin ərazisində qoysaydılar, o zaman hardasa rəsmi Kiyevi başa düşmək olardı. O mənada ki, səfirlik ərazisinə müdaxilə etmək mümkün deyil. Ancaq məlum olanda ki, erməni dığalarına Kiyevin mərkəzində abidə ucaldılıb, o zaman paytaxt meriyasının buna icazə verməsi bağışlanılmazdır. Ən başlıcası, Ukraynanın özü neçə ildir separatizmdən, onun yaratdığı acı fəsadlardan əziyyət çəkir. Bunun nə demək olduğunu ölkə rəhbərliyi yaxşı bilir. Bu səbəbdən Ukrayna müəyyən ərazilərini itirib. Bununla yanaşı, rəsmi Kiyev daim Azərbaycandan Krım və Donbas məsələsində işğalçılıq faktının pislənməsini və Ukraynanın ərazi bütövlüyünə dəstək verilməsini istəyib. Belə olan halda, Ukrayna hakimiyyət orqanlarının Azərbaycan torpaqlarında hərbi əməliyyat zamanı ölmüş işğalçı orduya abidə ucaldılmasına icazə verməsi heç bir məntiqə sığmır. Donbasda və Krımda döyüşlər zamanı öldürülmüş separatçılara hansısa ölkədə abidə ucaldılsaydı, Ukrayna rəsmiləri şübhəsiz ki, bunu müsbət qarşılamazdılar. Düzdür, Ukraynada erməni diasporu güclüdür. Ancaq bu heç bir əsas vermir ki, Azərbaycana qarşı vuruşan erməni işğalçılarına abidə qoyulmasına şərait yaradasan. Bu həm də Ukrayna dövlət başçısı Poroşenkonun səhvinin nəticəsidir. O, Azərbaycanın Ukrayna ilə dostluq münasibətlərinə necə böyük önəm verdiyini nəzərə alaraq buna yol verməməli idi. Başı seçkilərə qarışsa da, hər halda, çoxdan ermənilərə bununla bağlı icazə verib. Çünki abidənin hazırlanması üçün müəyyən vaxt lazımdır.

Bu ilin əvvəlində bənzər xoşagəlməz hal Gürcüstanda yaşandı. Belə ki, azərbaycanlılar üçün həssas olan bir gündə (20 Yanvar günü) Axalkalakidə əslən oradan olan, Qarabağ müharibəsində ölən Avakyana abidə qoyuldu. Baxmayaraq ki, Gürcüstanın iqtisadi inkişafında Azərbaycanın müstəsna rolu var. Gürcüstan hakimiyyəti bunu görməzdən gəldi. Bu nankorluq azmış kimi, indi də Ukraynanın timsalında belə xoşagəlməz hal yaşanır. O baxımdan bunu ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucov bunu kəskin tənqid etdi:** "Ukrayna hakimiyyətinin bu səhvi heç bir məntiqə və dövlətlərarası münasibətlərə uyğun deyil. Uzun illərdir Ukrayna ilə Azərbaycan arasında mehriban münasibətlər var. İkitərəfli dostluq münasibətləri üstün səviyyədədir. Belə olan halda, Ukrayna hakimiyyətinin erməni lobbisinin təsiri altına düşərək abidənin qoyulmasına icazə verməsi çox yanlışdır. Hesab edirəm ki, bu, rəsmi Kiyevin buraxdığı böyük siyasi səhvdir. Hansı ki, belə hallar iki ölkə münasibətlərinin hazırkı səviyyəsinə kölgə sala bilər. Mən özüm də bu prosesi izləyirəm. Nədənsə, Kiyevdə erməni işğalçısına qoyulan abidə o qədər də ictimailəşmədi. Gürcüstanda Avakyanla bağlı məsələ böyük müzakirələrə səbəb oldu. Hesab edirəm ki, Ukraynada yaşanan bu rəzalət geniş ictimailəşdirilməlidir. Eyni zamanda, bununla bağlı Ukrayna rəhbərliyinə, Kiyev meriyasına müxtəlif səviyyələrdə etiraz edilməlidir.

**İstənilən halda, buna şərait yaratmaq yolverilməzdir. O baxımdan bunu kəskin pisləyirəm. Ukraynanın özünün separatçılıqdan əziyyət çəkdiyini nəzərə alsaq, ölkə rəhbərliyinin buna icazə verməsi heç cür anlaşılan deyil. Anlamaq olmur ki, ermənilərə niyə belə önəm verilir".**

*Vidadi ORDAHALLI*

**Müsavat Partiyasının çox fəal üzvlərindən olan hüquq müdafiəçisi Taleh Xasməmmədov partiya sıralarından çıxarılıb. O, Müsavat Partiyasından çıxarılması səbəbini partiyadan belə izah edildiyini dedi ki, guya ona dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, o, partiyanın siyasi xətti ilə üst-üstə düşməyən fəaliyyət göstərib, "Facebook" sosial şəbəkəsində partiya əleyhinə böhtan xarakterli statuslar paylaşıb.**

# Xaric edilən partiya üzvü Müsavatda illik 300 min avro "mühacir saxtakarlığından" danışır...

## *Taleh Xasməmmədov: "Hər ay Müsavat Partiyası adına xas olan saxta sənədlərdən 200-300 min avroluq dövriyyə var"*




*"Hazırda Müsavatın adı ilə xaricdə saxta sığınacaq alanların sayı 10 minə yaxındır"*

"Çağırdıqları iclaslara gəlmədiyimi bəhanə edərək, özümün iştirakı olmadan məni Müsavatdan uzaqlaşdırıblar".

**Taleh Xasməmmədov "Bakı-Xəbər"ə açıqlamasında partiyanın qərarını antidemokratik adlandırdı:** "Mən 2000-ci ildən Müsavat Partiyası sıralarındayam, amma bu müddət ərzində heç vaxt partiyaya üzvlük barədə vəsiqə almamışam. Hətta 2011-ci il tarixdə həbsim zamanı Müsavat Partiyasının bir məsul şəxsi guya axtarış aparmasına baxmayaraq, mənim partiyaya üzv olub-olmamağım barədə arayış təqdim edə bilməmişdi. Hansı ki, mən uzun illər Müsavat Partiyasını seçki komissiyasına təqdim edilən üzv olaraq təmsil etmişəm, eyni zamanda, bir çox mitinqin fəal iştirakçısı olmuşam. Amma indi necə olursa Avropada hər yoldan keçən birinin cibindən Müsavat üzvü olduğunu təsdiq edən vəsiqə çıxır? Belə hallarda işi çətinə düşən kimi partiya rəhbərliyi "saxtadır" deyib məlumatları təkzib edir. Bəli, doğrudan da saxtadır, çünki Müsavatın o qədər üzvü heç vaxt olmayıb, amma "saxta" olaraq onlara üzvlük vəsiqəsi verilib. Bundan əlavə, qeyd edim ki, bu cür faktiki sənədlərə istinad edilmiş ittihamlar hansı partiyaya yönəlsəydi, həmin partiya rəhbərliyi ya məhkəmə qaydasında "nüfuz" davası açardı, ya da ki, hüquq-mühafizə orqanlarına müraciət edilərək cinayət əməli törətmiş şəxslərin məsuliyyətə cəlb olunması tələb olunardı. Amma heç bir tələb edilmir, edilməyəcək də. "Qara bazar" elə bazardır, yararlananlar və yaradanlar üçün. Təəssüf ki, mənə çatanda "arxiv arayışı" tapa bilmirdilər.

Bu arada mən onlar üçün bəzi önəmli "dələduz" olsaydım, mənim də vəsiqəm verilərdi, partiyada şəklim divara vurulardı, hansı ki, vicdan məhbusu idim!"

T.Xasməmmədov iddia edir ki, onun mühacir biznesi ilə bağlı əlaqədə şübhələndiyi partiyadan izahat tələb etməsi belə vəziyyəti yaradıb: "Burada çox böyük pullar oynayır. Hazırda Müsavatın adı ilə xaricdə saxta sığınacaq alanların sayı 10 minə yaxındır. Partiyanın fəaliyyətinin ən pik vaxtı 2003-cü ilə təsadüf edir. Heç onda Müsavatın 10 min fəal, cəfakeş üzvünü biz görməmişik. Mən hesab edirəm ki, hər ay Müsavat Partiyası adına xas olan saxta sənədlərdən 200-300 min avroluq dövriyyə var. Bununla bağlı ortaya faktlar qoyulur, saxta sənədlərin surətləri paylaşılır. Niyə partiya rəhbərliyi bunu susqunluqla qarşılayır? Bəlli şəbəkə artıq tam oturuşub. Burdan gedən adamın sənədlərini düzəltmək üçün 3 min avro alırlar.

Orada qarşılayan adam 3 min avro alır. Təxminən 1500 avro da vəkilə verilir ki, oradakı saxtakarlıqları malalasın. Hər ay da 100-ə yaxın belə adam yola salınır. Mən bunun hesabatını tələb etmişəm. Müsavatın bu qədər əzabkeş üzvü vardısa, niyə biz onları meydanlarda, mitinqlərdə görmürük".

*Məhəmmədəli QƏRİBLİ*

# NATO - Azərbaycan yaxınlaşmasını istəməyən Aylans üzvü (?)...

**Bu günlərdə bəzi kütləvi informasiya vasitələrində yayılan "Azərbaycan NATO-ya üzv ölkələr üçün öz ərazisindən keçən dəhlizi bağlayır" ifadəsinin həqiqətə uyğun olmaması Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən bildirildi. Məlumatda qeyd edilib ki, Azərbaycan dəhliz mənasında heç kimə, o cümlədən NATO-ya hər hansı ərazisini vermir:**



*"Bu qərəzli məlumatın alman nəşrinə haradan sızması..."*

"Burada söhbət NATO-nun Əfqanıstanda həyata keçirdiyi və Azərbaycanın da iştirakçısı olduğu "Qətiyyətli dəstək" missiyasının üzvlərinə ölkə ərazisindən, o cümlədən quru, hava və su məkanından sözügedən missiya çərçivəsində müvafiq yük daşımalarının həyata keçirilməsi üçün müvafiq imkanın təmin edilməsindən gedir. Belə bir təcrübə 2001-ci ildən mövcuddur. Bu imkanların təmin olunması üçün NATO-ya üzv ölkələrin müvafiq uçuş icazələrinin əldə edilməsi müraciətləri ikitərəfli əsaslarda nəzərdən keçirilir. Sözügedən müraciətlərə Azərbaycan tərəfinin müvafiq qayda və prosedurlarına uyğun olaraq, eləcə də tərəfdaşlığın təməlini təşkil edən dövlətlərin bir-birlərinin suverenliyi və ərazi bütövlüyünə hörmət və əməkdaşlıq prinsipləri əsasında baxılır...".

Ən maraqlısı isə budur ki, bizim XİN-in məlumatında bu dezinformasiyanın NATO üzvü olan Almaniya mediası tərəfindən dövriyyəyə buraxıldığı qeyd olunur: "...Bununla yanaşı, son günlər Almaniya mətbuatına sızılmış məlumatlar və ittihamlar anlaşılmazlıq yaratmaqla yanaşı, kiminsə qərəzliliyindən xəbər verir. Əsassız ittihamları özündə əks etdirən bu məlumatlar konkret faktlara əsaslanmır. Bir daha bildiririk ki, Azərbaycan müvafiq tərəfdaşlıq prinsipləri əsasında və beynəlxalq hüququn normalarına uyğun olaraq, NATO üzvü ölkələrlə əməkdaşlıq edib, hazırda edir və gələcəkdə də bu əməkdaşlığı davam etdirməyə hazırdır. Almaniya KİV-ə sızılmış məlumata istinadən müşahidə etdiyimiz uydurma kampaniya yanlışdır və Azərbaycan haqlı olaraq gözləyir ki, Almaniya hökuməti müvafiq şəkildə özü bu məsələni cavablandıracaq. Azərbaycan NATO üzvü ölkələrinin müraciətlərinə bundan sonra da müvafiq şəkildə baxmağa davam edəcək".

## *Qabil Hüseynli: "Məhz belə bir vaxtda NATO - Azərbaycan əməkdaşlığına xələl gətirmək istəyi ancaq təxribat ola bilər"*

Belə olan təqdirdə maraqlı mənzərə yaranır. Fəal NATO ölkəsi olan Almaniyadakı bəzi dairələr niyə Azərbaycanın Alyansla münasibətlərini korlamaqda maraqlı olsunlar? Bununla iddia etmək olarmı ki, Avropa ölkələrinin özündə belə, Azərbaycanın NATO ilə münasibətlərinə xələl gətirməkdə maraqlı olan qüvvələr var?

**Politoloq Qabil Hüseynli qəzetimizə açıqlamasında bildirdi ki, belə qüvvələr həqiqətən var:** "Bu bizi təəssüfləndirir. Xüsusilə də belə dezinformasiyanın mənbəyi NATO ölkəsi olanda adam heyrətlənir. Ola bilər ki, bu tip dezinformasiya erməni diasporu tərəfindən də alman nəşrinə sızdırılıb. Yəni bu, Almaniyanın rəsmi mövqeyi olmasa da, hər halda, məsuliyyət yarada bilir. Əfqanıstandakı NATO qüvvələrinə yüklərin 80 faizi Azərbaycan üzərindən daşınır. Əvvəllər Rusiya və Qırğızıstan vasitəsilə də daşınırdı. Sonra Rusiya bundan imtina etdi. Hazırda bununla bağlı böyük yük bizim üzərimizə düşür. Bir çox yük elə Almaniyanın özündən təyyarə ilə "Nasosnı"ya gətirilir. Oradan gəmilər vasitəsilə Aktauya aparılır. Oradan isə yenə təyyarə ilə Əfqanıstana göndərilir. Hazırda isə bunun üçün Azərbaycan vasitəsilə yeni marşrut üzrə göndərilməsi razılığına gəlinib. Türkiyəyə gətirilən yüklər oradan dəmir yolu vasitəsilə Ələt limanına gətiriləcək, oradan isə Türkmənbaşıya aparılacaq. Bu xətt artıq baş tutub. Aktaunu Türkmənbaşı ilə dəyişmək məsafəni təqribən iki dəfə azaldacaq. Bu həm də NATO üçün ucuz başa gələcək. Hərtərəfli NATO-ya sərf edəcək, daha doğrusu, məsrəfləri 3 dəfə aşağı salacaq. Məhz belə bir vaxtda NATO - Azərbaycan əməkdaşlığına xələl gətirmək istəyi ancaq təxribat ola bilər. Mənə elə gəlir ki, bu qərəzli məlumatın alman nəşrinə haradan sızması ilə maraqlanmaqda Almaniya hökumətinin özü də maraqlı olmalıdır. Mən şəxsən buna söz tapa bilmirəm. Çünki Azərbaycan bu işi 10 ildən çoxdur həyata keçirir. Hər il 120 əsgərini NATO kontingenti tərkibində Əfqanıstanda qulluğa göndərir. Bunların hamısı boş və mənasız sözlərdir. Həmin dərgi mütləq mənada təkzib verib, Azərbaycandan üzr istəməlidir. NATO-nun bu yaxınlarda keçirilən sessiyasında qurumun baş katibi Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini dedisə, deməli, belə təxribatlar baş tutan deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Bəzi ərəb ölkələri üçün Ermənistanla maddi maraqlar Quran və məscidlərdən üstün imiş...

**İordaniya Haşimilər Krallığının Ölü dənizi sahilindəki bölgəsində Yaxın Şərq və Şimali Afrikaya dair X Dünya İqtisadi Forumu keçirilib. İordaniya Haşimilər Krallığının Kralı II Abdullanın himayəsi altında keçirilən forumda yüksək səviyyəli dövlət və hökumət başçıları, alimlər, vətəndaş cəmiyyətləri və aparıcı şirkətlərin rəhbərləri iştirak ediblər.**




*"Belə yaxınlaşma kursu, bütövlükdə, müsəlman birliyinə kölgə sala bilər"*

Forum çərçivəsində Yaxın Şərq və Şimali Afrika regionları ölkələrinin inkişafı, onların arasında əməkdaşlığın genişlənməsi, dövlət və özəl iqtisadi sektorlar arasında qarşılıqlı fəaliyyətin möhkəmlənməsi, əlverişli investisiya mühitinin yaradılması perspektivləri, habelə bu ölkələrin iqtisadiyyatlarının daha sıx inteqrasiya imkanlarının yaradılmasına imkan verən digər məsələlər müzakirə olunub.

Maraqlıdır ki, sözügedən tədbirə Ermənistan da dəvət olunub. Rəsmi səviyyədə Ermənistanı təmsil edən nümayəndə forumda iştirak edib. Bu arada Ermənistanın baş naziri Nikol Paşinyan Birləşmiş Ərəb Əmirliklərinin yeni təyin olunmuş səfiri Məhəmməd İsa Zaabı qəbul edib. Paşinyan Ermənistanla BƏƏ arasındakı əlaqələrin davamlı inkişafının vacibliyini vurğulayıb. O qeyd edib ki, son vaxtlar iki ölkə arasında iqtisadi əməkdaşlıq əhəmiyyətli dərəcədə intensivləşib. Biznes əlaqələrinə yeni təkan vermək üçün yaxşı imkanlar var. Paşinyan Ermənistan və BƏƏ arasında turizm sahəsindəki əməkdaşlıqdan məmnun olduğunu bildirib. Hətta Paşinyan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı balanslaşdırılmış mövqeyə görə BƏƏ hökumətinə təşəkkür edib.

Ümumiyyətlə, bir sıra ərəb ölkələrinin Ermənistana göstərdikləri bu yaxınlıq anlaşılan deyil. Bundan əvvəl Livan və Suriya Ermənistanla xüsusi isti münasibətlər qurmuşdular və indi də tərəflər arasında münasibətlər yüksək səviyyədədir. İndi isə İordaniya ilə BƏƏ Ermənistana belə xüsusi diqqət göstərir. Dəfələrlə Azərbaycan bəyan edib ki, Ermənistanın müsəlman ölkələrinə, islam mədəniyyətinə göstərdiyi münasibət səmimi deyil. İşğal olunmuş Azərbaycan ərazilərində islam abidələri, məscidlər və islam irsinə aid olan nə varsa erməni vandalları tərəfindən məhv edilib. Ermənilər Qarabağda məscidlərdə donuz bəsləyirlər. Dəfələrlə bununla bağlı istər Azərbaycanda, istərsə də digər ölkələrdə keçirilən tədbirlərdə məlumat verilib. Ancaq, nədənsə, bir sıra ərəb ölkələri bunu görmək istəmirlər. Bütün bunları ekspertlər necə dəyərləndirirlər?

## *Seyid Camal Əzimbəyli: "Bəzi ərəb ölkələrinin Ermənistana göstərdikləri diqqət yalnız təəssüf doğurur"*

**Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, ərəb ölkələrinin Ermənistana göstərdikləri belə yaxınlıq islam həmrəyliyinə ziddir:** "Nə edək ki, belə xoşagəlməz vəziyyətin qarşısını almaq olmur. Bəzi ərəb ölkələrinin Ermənistanla yaxınlaşma kursu götürməsi, bütövlükdə, müsəlman birliyinə kölgə sala bilər. Yaxın Şərq ölkələrində erməni lobbisi çox aktiv fəaliyyət göstərir. Digər tərəfdən, bəzi müsəlman ölkələri Ermənistanın işğalçılıq siyasətini görməzdən gəlirlər. Nəticədə belə xoşagəlməz mənzərə yaranır. Sirr deyil ki, bəzi ərəb ölkələrində emənilər yaşayır və müxtəlif sahələrdə aktivdirlər. Ancaq bu əsas vermir ki, müsəlman ölkələri Ermənistanla xüsusi yaxınlıq göstərsinlər. Ən azından, Ərəb dünyası İslam Konfransı Təşkilatının Dağlıq Qarabağla bağlı mövqeyini nəzərə almalıdır. Hansı ki, sözügedən qurum birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

Ermənistanın işğalçı siyasəti üzündən islam irsinə divan tutulub. Belə olan halda, hansı əsasla Ermənistanla münasibətlərdə yaxınlaşma kursu götürülür? Ona görə də bəzi ərəb ölkələrinin Ermənistana göstərdikləri diqqət yalnız təəssüf doğurur".

***Vidadi ORDAHALLI***

# "Xüsusi zərbə qüvvələrimiz Azərbaycanın içində hər vaxt xaos yarada bilər" - erməni nazirin qorxudan doğan isteriyası...

**Ermənistan müdafiə naziri David Tonoyan son müsahibəsində yenidən Azərbaycanı hədələyib. Onun sözlərinə görə, Azərbaycana elə gəlir ki, qələbələr və ya ərazilər barədə məsələdə üstünlüyə malikdir: "Belə bir üstünlüyə malik deyillər və olmayacaqlar".**




Əvvəlki təxribatçı açıqlamalarına sadiq qalan Tonoyan hər hansı bir fəaliyyət fonunda ordumuzla bizim ərazimizdə qarşılaşacaqlarını iddia edib. Tonoyan burada rəqibin ərazisi dedikdə bunun işğal altında olan ərazilərdən kənar ərazilər olduğunu nəzərdə tutur. Yeni Tonoyan "yeni ərazilər üçün yeni müharibə" utopiyasından imtina etmək fikrində deyil. Erməni jurnalistin "niyə sülh deyərkən mənfi şeyləri qəbul edirik" sualına Tonoyan belə cavab verib: "Cəmiyyətdə bəzi insanlar 1994-cü ilə qədər atəşkəs təsdiq edilənədək nə baş verdiyini bilmirlər. İnsanlar tez-tez bizim harada olduğumuzu, hansı problemləri həll etdiyimizi, hansı missiyamızın olduğunu bilmirlər... İnsanlar bəzən qonşu ölkələr tərəfindən həyata keçirilən informasiya siyasətinin təsirinə məruz qalırlar. Azərbaycan çox güclü və qüdrətli olduğunu iddia edir. Azərbaycana elə gəlir ki, qələbələr və ya ərazilər barədə məsələdə üstünlüyə malikdir. Belə bir üstünlüyə malik deyillər və olmayacaqlar".

Hücum bölmələrinin sayının artırılması haqqında danışarkən Tonoyan qeyd edib ki, rəqib ərazisində döyüş əməliyyatları həyata keçirə bilərlər. O daha detallı izah edərək bildirib ki, bunlar rəqiblə onun ərazisində üz-üzə gələ biləcək, xüsusi əməliyyatlar həyata keçirən bölmələrdir: "Növbəti dəfə bu kimi addımlar atmaması üçün rəqibi susduracağıq. Söhbət qeyri-standart addımlardan gedir. Zərurət olduğu halda bizim hücum döyüş qruplarımız düşmən arxasında çaxnaşma yarada bilərlər".

Qeyd edək ki, D.Tonoyanın bu müsahibəsinə Bakıdan Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı cavab verib: "Ermənistan müdafiə nazirinin səsləndirdiyi növbəti sərsəm fikirlər heç bir normal məntiqə sığmayan, anormal düşüncəli şəxsin sayıqlamasına bənzəyir. Ermənistan hakimiyyətini təmsil edən bu şəxsin beynəlxalq terrorçulara bənzər tərzdə çıxış etməsi, bu məntiqlə davranaraq dinc əhaliyə qarşı açıq-aydın təhdid dolu fikirlər səsləndirməsi xaosun məhz rəsmi Yerevanın hazırkı rəhbərliyində mövcud olduğunu sübut edir. İşğalçı ölkənin müdafiə nazirinin son çıxışları Nikol Paşinyan hakimiyyətinə qarşı yönəlmiş və D.Tonoyanın gələcək siyasi karyerası üçün hesablanmış hiyləgər planın bir hissəsidir. Ermənistan rəsmilərinin müharibə hədəsi ilə dolu səsləndirdikləri təhdidləri ciddi qəbul etməyən Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə tam hazırdır".

Ermənistan müdafiə nazirinin son bəyanatı təsdiq edir ki, Paşinyan hökuməti Qarabağ məsələsində yeni kusr götürüb. Azərbaycanın səsləndirdiyi bəyanatlara dərhal avantüra ilə cavab verib, bizi söz atışmasına cəlb etmək niyyətini güdür. Ancaq, əslində, məsələnin kökündə onların qorxu içində olmaları durur. Bu günlərdə ölkə başçısı İlham Əliyevin xüsusi təyinatlı hərbçilərlə görüşdə səsləndirdiyi "müharibə hələ qurtarmayıb, onun yalnız birinci mərhələsi bitib" fikrinə də Ermənistandan kəskin reaksiyalar oldu. Tonoyanın bu açıqlamasını da Azərbaycanın lazım gəlsə müharibəyə əl ata biləcəyi ilə bağlı verilən açıqlamaya cavab xarakterli saymaq olar. Tonoyanın açıqlamasına rəsmi cavab verilib. Ancaq maraqlıdır, bu barədə müstəqil ekspertlər nə düşünürlər? Tonoyanın dediyi kimi, düşmənin bizim ərazilərimizdə çaxnaşa yaratmaq kimi imkanları varmı, yoxsa bu, növbəti blefdir?

Hərbi ekspert Azad İsazadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə isterik bəyanatların Ermənistanda səslənməsinin bizim Prezidentin xüsusi təyinatlı qüvvələrlə görüşdən sonraya təsadüf etməsi maraqlıdır: "Bilirsiniz ki, bizim xüsusi təyinatlıların başlıca funksiyası düşmənin arxasına keçib orada müəyyən tapşırıqları yerinə yetirməkdən ibarətdir. Tonoyan isə bizə ərazimizdə terror, diversiya törədə biləcəkləri ilə hədə gəlir. Bir növ, demək istəyir ki, bizdə də belə qüvvələr var. Bunun bir tərəfi informasiya müharibəsinə aiddir. Ancaq bizim ataların yaxşı bir misalı da var: şər deməsən, xeyir gəlməz. Bir anlıq təsəvvür edək ki, ermənilərin də belə qüvvələri var. Ancaq məsələyə iki aspektdən yanaşmalıyıq. Bir var dinc əhalinin içinə gizli yolla keçib terror törətmək, bir də var təmas xəttində kəşfiyyatçı dəstələrin qoşunlarımızın arxasına keçib hansısa təxribatı törətməsi. Bunların hər ikisini hərbi kəşfiyyat təşkil edə bilər. Ermənilərin mülki əhali arasında terror törətmək vərdişləri var. Onlar terrora meylli millətdirlər. Hətta onların müstəqil ordusu formalaşmamışdı, ancaq bir neçə terror hadisəsi törədə biliblər. 20-ci əsr ərzində onlar dünyada bir çox terror aktı həyata keçiriblər. Qarabağ problemi başlayanda Azərbaycanda da belə aktlar olub. Avtobusda, metroda partlayış ediblər. Təbii ki, bu istiqamətdə zəif yerimizi tapmağa çalışırlar. Amma Azərbaycanın xüsusi xidmət orqanlarının sayıqlığı buna imkan vermir və verməyəcək də".

Ekspertin sözlərinə görə, təmas xətində də bu işlə bizim əks-kəşfiyyat orqanları məşğul olurlar: "Bizim hərbi hissələrin hər birində əks-kəşfiyyat qurumlarının təmsilçiləri var. Onlar hətta Müdafiə Nazirliyinə belə tabe deyillər. Yadınıza gəlirsə, aprel döyüşlərindən sonra böyük bir casus şəbəkəsi ifşa edildi.

Bax bu, həmin qurumların ayıq-sayıqlığı nəticəsində oldu. Düşmən kəşfiyyatı belə satqınlardan istifadə edib uğur qazana bilər. Görülən tədbirlər göstərir ki, bizim hərbi hissələrdə bu istiqamətdə ciddi iş aparılır. Bununla bağlı cəbhə zonasındakı mülki əhali arasında da ciddi işlər aparılmalıdır. Əminəm ki, bu istiqamətdə bizim hazırlıqlarımız lazımi səviyyədədir və ermənilər Tonoyanın dediklərini həyata keçirə bilməzlər. İstəkləri, niyyətləri ola bilər, ancaq ordumuz və xüsusi xidmət orqanlarımız buna imkan verməz".

*Məhəmmədəli QƏRİBLİ*

# Paşinyanın arvadı Bostan ermənilərindən cəmi 150 min dollar ianə toplaya bildi - erməni icmasının soyuqluğuna yeni sübut...

## *Elçin Mirzəbəyli: "Əslində, bu çatlar çoxdan yaranıb"*

**Xaricdəki erməni diasporu Nikol Paşinyan hakimiyyətinə növbəti dəfə inamsızlığını açıq şəkildə ortaya qoyub. Bir vaxtlar Ermənistanda mövcud olan hakimiyyətlərə ciddi maliyyə dəstəyi göstərən ABŞ-ın erməni icması öz münasibətilə Paşinyanı məyus edib.**



*"Ermənistanda söz və fikir azadlığı ilə bağlı son dövrdə ciddi problemlərin yaranması, təbii ki, diasporun da Paşinyana münasibətini dəyişdi"*

Məlum olduğu kimi, Ermənistanın baş naziri N.Paşinyanın həyat yoldaşı Anna Akopyan ABŞ-a səfəri çərçivəsində Bostonun erməni icması ilə görüşüb. Bostonun erməni icması A.Akopyanın başçılıq etdiyi "Gülüşlər şəhəri" fonduna 150 min dollar ianə verib. Akopyanın növbəti dilənçilik fəaliyyətinin bu cür nəticələnməsi Ermənistan cəmiyyətinin özündə də birmənalı qarşılanmayıb.

Bostondakı erməni icmasının Akopyana 150 min dollar ianə verməsi onların Paşinyan hakimiyyətinə inamsızlığının, etimadsızlığının nəticəsi ola bilərmi?

**"Xalq cəbhəsi" qəzetinin baş redaktoru, politoloq Elçin Mirzəbəyli mövzunu "Bakı-Xəbər"ə şərh edərkən bildirdi ki, hazırda xaricdəki erməni diasporu, ümumiyyətlə, Paşinyana inanmır və inamsızlığının növbəti nümunəsi Bostondakı olaydır.** "Bu təkcə Paşinyana deyil, bütövlükdə, Ermənistanın siyasi sisteminə etimadsızlığın göstəricisidir. Əslində, bu çatlar çoxdan yaranıb. Sarkisyan dövründə də müəyyən çatlar baş vermişdi. Ancaq Paşinyanla bağlı məsələdə bu çat daha da dərinləşdi. Çünki Paşinyanın məqsədlərindən biri də diasporu ölkə siyasətindən uzaqlaşdırmaq idi. O hesab edirdi ki, köhnə komanda ilə daha yaxın olan diaspor qurumları onun fəaliyyətinə ciddi manеə yaradacaqlar. Baxmayaraq ki, diaspor müəyyən qədər Paşinyanın hakimiyyətə gəlməsinə dəstək verməyə cəhd göstərib. Lakin bu proses ərzində verdiyi bəyanatların heç birini yerinə yetirməməsi, vədlərin icra olunmaması, Ermənistanda söz və fikir azadlığı ilə bağlı son dövrdə ciddi problemlərin yaranması, təbii ki, disaporun da Paşinyana münasibətini dəyişdi".

E.Mirzəbəyli bir məqamı da vurğuladı ki, Ermənistanda, faktiki olaraq, Paşinyanın son qərarları ilə mətbuata və sosial şəbəkələrə nəzarət funksiyası milli təhlükəsizlik strukturlarına verilib. Bu isə total şəkildə söz və fikir azadlığı üzərində nəzarətin həyata keçirildiyinin sübutudur. E.Mirzəbəylinin sözlərinə görə, bütün bunlar Paşinyanın diktaror mahiyyətini ortaya qoyan bir amildir: "Bu baxımdan, şübhəsiz ki, diaspor öz münasibətini göstərdi. Baxmayaraq ki, Bostonda keçirilən görüşdə Akopyan tərəfindən kifayət qədər "göz yaşı" töküldü, "timsah göz yaşları". Burada Azərbaycan torpaqlarında ölən ermənilər haqqında danışıldı, onların mənasız yerə öldüyü bildirildi, lakin göründüyü kimi, burada heç bir nəticə hasil olmadı. Bu isə artıq Bostondakı erməni icmasının, diasporunun Paşinyan hakimiyyətinə tamamilə inamının azaldığını nümayiş etdirir".

*İradə SARIYEVA*

**Son günlərdə dünya bazarlarında yenidən neftin qiymətlərində artım müşahidə olunur. Bu fonda Azərbaycan neftinin də qiyməti bahalaşır. Artıq "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 1,1 dollar artaraq 73,04 dollar təşkil edib. Qiymətlərin daha da artması gözlənilir. Bunun əsas səbəblərindən biri hasilatçı ölkələrin qiymətlə bağlı vahid siyasət yürütməsi, bazara daha fəal şəkildə müdaxilə etmələridir.**

# Dünya yeni maliyyə savaşı ərəfəsində - Səudiyyə Ərəbistanında gizli antidollar müzakirələri...

*Dollarsız ticarətə meylli ölkələr artır, dünya qarışacaq...*




Son dövrlərdə isə qiymət artımına rəvac verə biləcək daha bir hal kimi ABŞ dolları ilə bağlı vəziyyət göstərilir. Məlumdur ki, dolların zəifləməsi dərhal neftin və bir sıra digər məhsulların qiymətinin yüksəlməsində özünü qabarıq büruzə verir. İndi belə görünür ki, neft ticarətində dollardan imtina etmək istəyənlərin sayının artması prosesə yeni təkan verə bilər. Artıq Rusiya, İran, Venesuela və bəzi bir sıra ölkələr neft ticarətində tədricən dollardan imtina edirlər. Onların sırasına yaxın tezlikdə ən böyük neft hasilatçılarından biri sayılan Səudiyyə Ərəbistanının da qatılması gözlənir. Yayılan məlumatlara əsasən, Səudiyyə Ərəbistanında aparılan məxfi görüşlərdə bildirilib ki, Vaşinqtonda OPEC ölkələri əleyhinə qanun layihəsi qəbul olunacağı təqdirdə Ər-Riyad xam nefti dollarla deyil, başqa valyutalarla sata bilər. Bunu Səudiyyə Ərəbistanının enerji siyasəti ilə bağlı məlumatlı mənbələr bildirib. Onlar qeyd ediblər ki, sözügedən məsələ ötən ay Ər-Riyadda məhdud çərçivədə keçirilən iclasda müzakirə olunub. Mənbələr onu da bildirib ki, Səudiyyə Ərəbistanının bu planı OPEC-in digər üzv ölkələrinə də çatdırılıb.

Ekspertlər ABŞ-da NOPEC adı ilə bilinən qanun layihəsi qəbul ediləcəyi təqdirdə Ər-Riyadın atacağı adekvat addımın dolların əsas ehtiyat valyutası kimi zəifləməsinə səbəb olacağını qeyd edirlər. Onların fikrincə, səudiyyəlilərin əllərində olan külli miqdarda dollar ehtiyatı ABŞ üçün nüvə silahı qədər təhlükəlidir. Belə olan halda OPEC üzvü olmayan ölkələr - Rusiya, ən böyük neft istehlakçısı Çin və Avropa ölkələri vəziyyətdən faydalana bilər. Xatırladaq ki, Donald Tramp OPEC ölkələrini neftin qiymətinin süni şəkildə artırılması ilə bağlı məhkəməyə vermək üçün nəzərdə tutulan NOPEC qanununu prezidentliyə namizədliyi dövründə dəstəkləsə də, dövlət başçısı seçildikdən sonra bir daha həmin məsələyə qayıtmayıb.

Dollar üçün daha bir zərbə isə tezliklə Avropa İttifaqından gələ bilər. Məlumdur ki, Avropa İttifaqı dünyada ən iri neft və qaz idxalçısıdır. Ancaq bu sahə üzrə Avropa müqavilələrinin yalnız 20%-i avroda nominallaşıb. ABŞ dolları, Avropa Komissiyasının 2018-ci il üzrə hesabatına görə, neft, qaz və kömür idxalı zamanı haqq-hesabda əsas valyuta olaraq qalır. Amma indi məlum olub ki, Avropa Komissiyası 31 marta qədər enerji daşıyıcılarının təchizatı üzrə müqavilələrdə avronun rolunu gücləndirəcək təklifə dair Avropa İttifaqı ölkələrinin rəyini toplayır. Avropa Komissiyası qeyd edir ki, energetika ilə bağlı müqavilələrdə dolların üstünlük təşkil etməsi valyuta kurslarının dəyişməsinə görə Avropa şirkətlərini risqlərə məruz qoyur. Bundan əlavə, ABŞ-ın idxal rüsumları və kvotaları tətbiq etməsi kontekstində rəsmi Brüssel ABŞ-ın xarici ticarətdə apardığı siyasətdən də narahatdır.

Həmçinin, Avropa Komissiyası avronu "dayanıqlı, etibarlı və hamının qəbul etdiyi valyuta" hesab edir. Komissiya təkcə enerjidaşıyıcı bazarından narahat deyil. O, maraqlanan tərəflərlə, kənd təsərrüfatı da daxil, digər mal bazarlarında da avronun istifadəsini müzakirə edir. Energetika üzrə avrokomissar Migel Arias Kanyete bildirib: "Enerji daşıyıcılarının idxalına dair uzunmüddətli müqavilələrin əksəriyyəti avro ilə bağlanmır. Bu, vəziyyətin qeyri-sabitliyindən xəbər verir və avronun dünyada oynamalı olduğu rolu əks etdirmir". İndi Avropa İttifaqının enerji müqavilələrinin böyük əksəriyyətini avro ilə bağlaması dollar üçün sarsıdıcı zərbəyə çevrilə bilər. Artıq İran, Rusiya kimi hasilatçılar nefti avroda satmaqda maraqlı olduqlarını bildirir. Çin isə neft və digər enerji növlərinin ödənişinin bir hissəsini yuanla həyata keçirməyə başlayıb. Xatırladaq ki, Şanxay beynəlxalq enerji birjasında neftin ticarətinin dollarla deyil, yuanla edilməsinə başlanıb. Ekspertlər hesab edir ki, yuanla neft ticarətinə marağın sürətlə artacağı gözlənir. Beynəlxalq iqtisadiyyat üzrə ekspert Rori Holl da bundan əvvəl bildirib ki, bu addım ABŞ-ın beynəlxalq miqyasda dollardan istifadəetmə qaydasında dəyişiklik yarada bilər. Belə ki, dollar istifadə etmədən neft ticarətinin reallaşması dünya ticarət qaydalarına təsirsiz ötüşməyəcək. Ekspertin fikrincə, Rusiya ilə Çinin iqtisadi əlaqələrinin genişlənməsini də nəzərə alanda, dolların ehtiyat valyuta kimi statusuna real təhlükə yaranır. Holl hesab edir ki, dollara əsl təhlükə yuanla neft ticarəti artmaqda davam edərsə yaranacaq.

Çinin daha bir zərbəsi də ekspertlər üçün gözlənilməz olub. "Goldman Sachs" ekspertləri bildirir ki, ABŞ dövlət istiqrazlarına yatırılan investisiyalar Çin qiymətli kağızlarına yönəlməyə başlayıb. Artıq yuana bu formada kapital axınında artım müşahidə edilir. Çin Dövlət Şurası prosesi sürətləndirmək üçün yeni qərar qəbul edib. Həmin qərar, əsasən, Çin qiymətli kağızlarını alan, investisiya yatıranlara vergi güzəştləri tətbiq edilir. "Goldman Sachs"ın hesablamalarına görə, yaxın 5 il ərzində investorlar Çin qiymətli kağızlarına trilyon dollardan çox vəsait yatıracaqlar ki, bunun da təxminən 35 faizi ABŞ dövlət istiqrazlarından imtina ilə mümkün olacaq. Ekspertlər hesab edir ki, bu hal artıq ABŞ dollarının qlobal valyuta statusuna son qoyacaq.

***Nahid SALAYEV***

**Məlum olduğu kimi, Avropa Şurası Parlament Assambleyasının yaz sessiyası başlayıb. Sessiyada Ermənistan nümayəndə heyəti də iştirak edir.**

# Paşinyan aprelin 11-də AŞPA-da ölkəmizə qarşı "ksenofobiya və dözümsüzlük" iftiraları yağdırmağa hazırlaşır...

***Fazil Mustafa:*** *"Onlar ermənilərin hər hansı addımını cavabsız qoymurlar"*



*"Çox güman ki, Paşinyanın edəcəyi çıxışa da reaksiyalar olacaq"*

Bu arada məlum olub ki, aprelin 11-də Ermənistan baş naziri Nikol Paşinyan AŞPA-da ksenofobiya və dözümsüzlüklə mübarizədə siyasi liderlərin roluna həsr olunmuş iclasda çıxış edəcək. Məlumata görə, Paşinyanın çıxışı Azərbaycana qarşı tənqid üzərində qurulacaq. Ermənistan baş naziri sözügedən məsələdə Azərbaycanı tənqid etməyə çalışacaq. Çox güman ki, Paşinyan bununla bağlı bir sıra əsassız fikirlər səsləndirəcək. Bir sözlə, Azərbaycan barədə mənfi rəy yaratmağa çalışacaq.

Əslində, belə hallar birinci dəfə deyil baş verir. Ermənistan tərəfi müxtəlif beynəlxalq tədbirlərdə tribunanın yaratdığı imkanlardan sui-istifadə edərək Azərbaycanın ünvanına qərəzli fikirlər səsləndirib. Elə AŞPA-nın timsalında bir neçə dəfə ermənilərin Azərbaycana yönəlik mənfur xarakterli çıxışları az olmayıb. Ancaq o da bir həqiqətdir ki, Azərbaycanı AŞPA-da təmsil edən deputatlar dəfələrlə Ermənistanı ifşa ediblər. Bu ölkənin apardığı işğalçılıq siyasətini faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırıblar. Bununla bağlı bir sıra tutarlı arqumentlər ortaya qoyublar. Reallıq ondan ibarətdir ki, Ermənistan baş nazirinin ksenofobiyadan danışmağa haqqı yoxdur. Çünki Ermənistan monoetnik dövlətdir. Ölkədəki bütün digər millətlər Ermənistanı tərk ediblər.

Bütün bunlarla yanaşı, Azərbaycanı AŞPA-da təmsil edən deputatlar Paşinyanın sözügedən mövzuda çıxış edəcəyindən xəbərdardırlarmı? Bununla bağlı adekvat çıxışlar olacaqmı?

Sözügedən deputatlar Strasburqda olduqları üçün, onların fikrini öyrənə bilməsək də, digər millət vəkillərinin münasibətini öyrəndik.

**Məsələyə münasibət bildirən millət vəkili Fazil Mustafanın sözlərinə görə, o, Paşinyanın sözügedən mövzuda çıxış edəcəyindən məlumatsızdır.** Ancaq onun fikrincə, hər halda, belə hal yaşansa, Azərbaycanı AŞPA-da təmsil edən deputatlar mövqe ortaya qoyacaqlar: "Azərbaycanı təmsil edən deputatlar Strasburqdadırlar. Onlar ermənilərin hər hansı addımını cavabsız qoymurlar. Digər tərəfdən, təbliğat nöqteyi-nəzərdən də ciddi işlər görürlər. Çox güman ki, Paşinyanın edəcəyi çıxışa da reaksiyalar olacaq. Ancaq bununla bağlı konkret hansı addımların atılacağı barədə məlumatım yoxdur. Bütövlükdə, Azərbaycanı təmsil edən deputatlar ölkənin maraqlarını qorumaq üçün sistemli mübarizə aparırlar. Ermənilərin Azərbaycana qarşı fəaliyyətinə, təxribatlarına qarşı ciddi fəaliyyət göstərirlər. Dəfələrlə biz bunu müxtəlif beynəlxalq tribunalarda maşahidə etmişik.

Azərbaycanı təmsil edən deputatlar ölkə maraqlarının qorunması ilə bağlı mövqe ortaya qoyublar. Ancaq bir daha qeyd edim ki, Paşinyanın çıxışı ilə bağlı necə mövqe sərgiləncəyi ilə əlaqədar konkret məlumatım yoxdur".

***Vidadi ORDAHALLI***

# Fransız texnologiyası, Azərbaycan gerçəkliyi və Prezidentin canlı təmaslarından "partlayış" gözləyənlər...

**Azərbaycanda aylardır həyata keçirilən kütləvi təsirli sosial addımların, islahatların, cinayət və cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı tədbirlərin son nəticələrini izləyən təkcə bizlər deyilmişik. Bizim ölkəmizdə gedən prosesi xaricdən də diqqətlə izləyirlər. Axı Azərbaycan onların bir qismi üçün dost olsa da, başqa qismi bizi dost ölkə saymır, pisimizi də, yaxşımızı da təhlil etməyə səy göstərir.**



**Aydın QULİYEV**

Maraqlı dairələr xeyli rəngarəngdir - dövlət və siyasi xadimlərdən başlamış vətəndaş cəmiyyətlərinə və hətta adi turistlərədək... Təbii ki, dünyanın məşhur rəy-sorğu mərkəzlərinin də bu sırada yeri var. Hansılara ki, müxtəlif ölkələrin siyasi partiya və hərəkatları, dövlət qurumları xüsusi maraq göstərir, onların rəyini öz hədəflərinə doğru gedən yollarda təsirli ideoloji silaha çevirir, həmin rəylərin əsasında milyonlarla insanın düşüncə və siyasi davranışlarını idarə edirlər.

Belə sorğu şirkətlərindən birinin Azərbaycanla bağlı apardığı rəy araşdırmasının nəticələrinə baxmaq kifayətdir ki, ölkəmizdə son bir ildə, yəni Prezident seçkilərindən sonra görülmüş işlərin həm öz xalqımız, həm də dünya müşahidəçiləri tərəfindən nə qədər diqqətlə izləndiyinin şahidi olaq. Necə deyərlər, bir ildə Azərbaycanda həyata keçirilən hərtərəfli islahatlar nəticəsində həssas sosial qruplar dövlətdən daha güclü maliyyə dəstəyi, sahibkarlar və biznes strukturları daha səmərəli və təminatlı iş mühiti, insanlar daha geniş məşğulluq sferası əldə ediblərsə, Fransanın məşhur rəy-sorğu şirkəti olan "Opinion Vey" isə bu gün dünyanın və xalqımızın diqqətini yenidən İlham Əliyevin fəaliyyətinə yönəldən rəqəmlər əldə edi...

Əlbəttə, bir sıra maraqlı təhlillərin aparılması üçün həmin rəqəmlər bizdən ötrü xüsusilə əhəmiyyətlidir. Fransanın tanınmış şirkəti bu ilin fevral-mart aylarında, Naxçıvan MR istisna olmaqla, Azərbaycanın hər yerindən çoxmərhələli seçmə qaydasında cəlb etdiyi 2000 respondent arasında apardığı rəy sorğusunun nəticələrini geniş şəkildə təqdim etdi. Bunlar sadəcə quru rəqəmlər yox, dünya ölkələrinin mütləq çoxunun "qazan kimi qaynadığı" bir vaxtda Azərbaycandakı sabitliyi, iqtisadi inkişaf, artan rifah və dərinləşən islahatları özündə saxlayan canlı və məzmunlu hadisələrdir.

Sorğunun ən mühüm nəticələrindən biri Azərbaycandakı möhkəm və davamlı siyasi sabitliyin köklərini və səbəblərini dəqiq göstərməsidir. Dünyanın dörddə üçünün bu gün daxili sarsıntı və təlatümlər yaşadığını nəzərə alsaq, Azərbaycanda sabitliyin çox illərdən bəri pozulmayan bir siyasi gerçəklik olmasının neçə yüz milyonlarla insan üçün qiymətli məlumat olacağını əminliklə demək olar. Respondentlərin 80 faizdən çoxunun mövcud sabitliyi İlham Əliyevin fəaliyyətinin birbaşa nəticəsi sayması real qənaət olmaqla bərabər, həm də maraqlı ölkələr üçün öyrənilesi təcrübə nümunəsidir. Azərbaycan Prezidentinin son bir ildəki fəaliyyətini müsbət qiymətləndirən 85 faiz respondent bu qənaətə ümumiləşmiş məntiqi mühakimələrlə yox, konkret sahələr üzrə aparılmış işlərin təhlili nəticəsində gəlib. Məsələn, əgər Prezidentin kadr islahatlarını, struktur islahatlarını, korrupsiya ilə mübarizə tədbirlərini, regionların inkişaf proqramlarını, xarici siyasətini, seçkiqabağı vədlərin icra vəziyyətini təhlil etmədən deyilən qənaətə gəlinmiş olsaydı, respondentlərin rəyini ümumiləşmiş saymaq olardı. Məsələ burasındadır ki, Prezidentin bir illik işini məqbul qiymətləndirən 85 faiz respondentin bir sıra konkret istiqamətlər üzrə xüsusi müşahidələr apardıqdan sonra nəticə çıxardığı göz qabağındadır.

95 faiz iştirakçının Azərbaycan Prezidentinin sosial-iqtisadi sahədə apardığı islahatları məqbul qiymətləndirməsi də təsadüfi nəticə deyil. Azərbaycanda rəyi soruşulanların nə qədər düşündüyünə əmin olmaq üçün, xüsusilə son bir ildə ölkədəki islahatlar barədə tərtib olunmuş başqa bir sıra beynəlxalq reytinq göstəricilərini yada salmaq kifayətdir. Yəni Prezidentin islahatlarına müsbət qiymət verən 95 faiz respondent həm öz müşahidələrini ortaya qoyur, həm də beynəlxalq reytinq tərtibçilərinin doğru yolda olduqlarını təqdiqləyir.

Rəy sorğusunda digər bir neçə maraqlı istiqamət üzrə yekun rəylərlə tanış olduqdan sonra belə bir sualın da cavabının sərrast tapıldığına əminlik yaranır: "Prezident bir il əvvəl xalqa verdiyi seçkiqabağı vədləri doğrulda bildimi?" Bu sualın da sərrast cavabı 2000 nəfər azərbaycanlı respondentlə Fransa şirkətinin birgə yaradıcılıq məhsulu olan sorğu sənədinin içindədir. Ancaq əvvəlcə başqa bir neçə konkret istiqamət üzrə də rəy sorğusunun nəticələrinə diqqət yetirək.

İstənilən bir ölkənin timsalında korrupsiyanın nə qədər çətin problem olduğunu, onun nəticələrinin o qədər də asanlıqla üzə çıxmadığını hər kəs bilir. Ancaq maraqlıdır ki, rəyi soruşulanların 76 faizi Prezidentin bu istiqamətdə göstərdiyi çətin fəaliyyətlərin nəticələrinə real qiymət verməyi bacarıb. Sübuta ehtiyac yoxdur ki, Prezidentin korrupsiya ilə mübarizədə hüquqi-direktiv islahatlar, inzibati və maarifçilik müstəvisində apardığı sistemli fəaliyyətlər nəticə verdiyi üçün cəmiyyətimizin diqqətini cəlb edib.

Sorğunun bu istiqamətdəki nəticələrini müxtəlif beynəlxalq strukturlarda, o cümlədən Avropa Şurası sistemində Azərbaycana və şəxsən Prezidentə qarşı çox dəfələrlə uğursuz korrupsiya hekayələri uydurmuş rüşvətxor lobbistlərə və onların "saxta faktlarla" təchiz edən bəzi dönük soydaşlara sərrast zərbə də saymaq olar. Paradoksa baxın - onların iyrənc oyun ssenarilərinin içində "korrupsiya" dedikləri işləri Azərbaycan xalqı dəstəklə qarşılayır.

Son bir ildə Prezidentin islahatlarının çox aydın mənzərəsində bir neçə istiqamət aşkar seçilir. Bunlar struktur islahatları, geniş sosial müdafiə islahatları, Prezidentin özünün cəmiyyətlə münasibətlərinin canlı təmaslar formasında yeni məzmun kəsb etməsi kimi şərti qruplara ayrıla bilər. Maraqlıdır ki, Prezident-cəmiyyət təmaslarının yeni, həm də özünü doğruldan forma və məzmun alması da rəyi soruşulan 2000 nəfərin diqqətindən yayınmayıb. Onların rəyinə əsaslanaraq demək olar ki, əhalinin 90 faizdən çoxu Prezidentin vətəndaşlarla, xüsusən bölgələrdə canlı təmaslarından, açıq söhbətlər aparmasından məmnundur. 90 faiz əhali Prezidentin canlı təmaslarına niyə bu qədər önəm verdiyini sorğuda da göstərdi. Öyrədilmiş, seçmə qaydada gətirilmiş, hamının girişi üçün imkanların olmadığı toplumlarla Prezidentin görüşünün effekti başqa, təbii və qadağalarsız axınla gəlmiş insanların Prezidentlə görüşünün başqa-başqa effektləri var. Şamaxıda, Ağsuda, İsmayıllıda bircə fakt ortaya çıxmadı ki, məni Prezidentlə görüşə getməyə qoymadılar, məktub təqdim etməyə imkan vermədilər, ya Prezidentlə görüşə can atan kimisə polisə apardılar, ya da kimsə Prezidentlə görüşməkdən zorla məhrum edildiyi üçün özünü yandıracağı, Özünü Prezidentin maşınının altına atacağı ilə hədələdi və sair. Canlı təmas görüşlərində hər şey açıq və sərbəst olduğundan, sovet dövrü rəhbərlərinin bölgə səfərləri üçün xarakterik olan belə "Siyasi əyalət dramları" ilə rastlaşmadıq. Prezident hər kəsi öz qiyafəsində, öz düşüncəsində görə bildi, insanlar isə Prezidentdən uzaq qaçmağa, haqq-nahaq hər bir hadisə üçün onun "kölgəsini qılınclamağa" ehtiyac olmadığını bildilər, Prezidentə məkan və əqidəcə yaxın olduqca hər bir problemin həllinin asanlaşdığına əmin oldular.

İllər idi ki, bir sıra məlum təbliğat mərkəzləri bölgələrdə insanların işsizlik və səfalətdən, ehtiyacdan, yoxsulluqdan guya əzab çəkdiyini aləmə car çəkir, belə gerçəklik qarşısında Prezidentin bölgə insanlarının arasına heç vaxt getməyəcəyinə sanki əminliklə meydan oxuyur, "gedə bilməz, xalqın arasına çıxa bilməz" kimi mesajlarla Prezidentin üzərində psixoloji üstünlük qazanmağa çalışırdılar. Prezidentlə bölgə əhalisi arasında böyük bir uçurumun mövcudluğuna inam onları elə bir eyforiyaya salmışdı ki, rayonlarda Prezidentlə sakinlər arasında gərgin qarşıdurma səhnələrinin belə yaşanacağını sadəlövhlüklə gözləyirdilər. Nəticədə nəyin baş verdiyinə təkrar geniş qayıtmırıq. İndiyə qədər ancaq seçkidə baş vermiş cəmiyyət-Prezident birləşməsinin qutulardan kənar canlı birləşmə variantının da şahidi olduq. Prezident yeni formatlı ünsiyyətlə bəzi məmurları xalqın qəzəbindən xilas etdi, insanların isə, məhz həmin məmurların sayəsində illərdən bəri müşkülə dönmüş hansısa probleminə qapı açdı. Bütün bu jestlərə qarşılıq olaraq xalqımız öz qədirbilənliyini sorğunun nəticələrində ortaya qoydu.

Prezidentin xarici siyasətinə cəmiyyətimizin 2000 respondent vasitəsilə göstərdiyi münasibətin də strateji, dövlətçilik və ümummilli əhəmiyyəti var. 90 faiz rəyi soruşulan şəxslər Prezidentin xarici siyasətinə müsbət qiymət verib. Heç şübhə yoxdur ki, bu qiymət həm də xalqımızın Qarabağ probleminin tam həllinin nə qədər mürəkkəb iş olduğunu dərk etməsinin ifadəsidir. Odur ki, hələ problemin tam həll edilmədiyi indiki şəraitdə Prezidentin xarici siyasətinin dəqiq və praqmatik olduğuna bir neçə tutarlı arqumentə söykənərək müsbət rəy verir. Yəni meydanlarda populistlik edərək "Qarabağ problemini qısa müddətdə tam həll edəcəyini" məsuliyyətsizcəsinə bəyan edən bəzi siyasi liderlərdən fərqli və ağıllı düşünür. Hesab edir ki, çox mürəkkəb regional və geosiyasi vəziyyətdə İlham Əliyev Ermənistanın təcridini tam başa çatdırıbsa, dünya onun təcavüzkar olduğunu yəqin edibsə, status-kvonun dəyişməsi məsələsində dünya birliyi tam Azərbaycanın tərəfindədirsə, saysız beynəlxalq tədbirlər Bakıda keçirsə, Rusiya və NATO-nun ali hərbi rəhbərləri Bakıda - İlham Əliyevin siyasi məkanında görüşürsə, dünyada neft qiymətlərinin stabilləşməsində Azərbaycan Prezidentinin mülahizələri dəqiq resept kimi qəbul edilirsə, belə siyasətin nəticələrinə başqa qiymət vermək siyasi olaraq səhv və qərəzli, mənəvi olaraq haqsızlıqdır.

İndi qayıdaq İlham Əliyevin 11 aprel 2018-ci il prezident seçkiləri ərəfəsində xalqa verdiyi vədlərin praktik icra vəziyyəti barədə sorğu iştirakçılarının rəyinə...

Respondentlərin 76 faizi suala müsbət cavab verib. Cavabın məntiqli olduğuna şübhə, təbii ki, ola bilməz. Əgər Prezident sabitliyin əsas təminatçısı kimi etiraf edilirsə, aparılan sosial-iqtisadi islahatlar məqbul sayılırsa, korrupsiya ilə mübarizəyə etimad göstərilirsə, ölkənin yeni iqtisadi modelə keçidi artan iqtisadi rəqəmlərlə təsdiqlənirsə, ölkə Prezidenti hər hansı bir kompleks hiss etmədən öz iradəsi əsasında görüşə gəlmiş minlərlə rayon sakini ilə birbaşa canlı dialoqa gedirsə, bütün bunların bir mənası var - Prezident xalqa verdiyi seçki vədlərini yerinə yetirdiyinə inanır və insanlar da buna əmin olduqlarını canlı təmaslarda göstərirlər.

Beləliklə, fransız şirkətinin rəy sorğusu ümumilikdə sabitlik və inkişaf axtaran bütün ölkələr üçün Azərbaycan reallığına söykənən model təqdim etdi - möhkəm sabitlik üzərində islahatları, iqtisadi inkişafı, artan rifahı, nəticəli xarici siyasəti və ölkənin coğrafi-tranzit imkanlarını bir araya gətirməyi bacaran Prezidentin öz vədlərini doğrultmaq nümunəsi yaratması tam məntiqli NƏTİCƏdir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ordumuz Ermənistana yeni aprel dərsləri keçməli olacaq...

**Dağlıq Qarabağ münaqişəsinin dinc yolla tənzimlənməsi Azərbaycanın, konfliktdə vasitəçilik edənlərin maraq dairəsində olsa da, Ermənistan rəsmilərinin açıqlamaları İrəvanda bu xüsusda qeyri-müəyyənlik hökm sürdüyünü göstərir. Digər tərəfdən, erməni rəsmilərinin açıqlamaları problemin hərbi müstəvidə həlli ehtimalını da əhəmiyyətli dərəcədə artırır.**

Halbuki, məsələ güc yolu ilə çözüləcəyi təqdirdə Azərbaycanın düşmən üzərində qısa zaman kəsiyində böyük müvəffəqiyyətə imza atacağını qarşı tərəfdə də yaxşı bilirlər. Bütün bunlara rəğmən, Ermənistanın müdafiə naziri David Tonoyanın sərsəm bəyanatları yeni savaşı körükləyən hal kimi çıxış edir.

Qeyd edək ki, erməni nazir yenidən Azərbaycanın yeni ərazilərinin işğal ediləcəyi barədə hədələyici bəyanatla çıxış edib. Tonoyan "Mediamaks" agentliyinə müsahibəsində "rəqibin arxa cəbhəsinə keçib xaos yaratmağa" hazırlaşan hücum bölmələri barədə danışıb. Xatırladaq ki, bundan əvvəl də Nyu-Yorkda erməni icması qarşısında çıxışı zamanı "yeni ərazilərin işğalı üçün yeni müharibə" formuluna keçdiklərini elan etmişdi. Tonoyanın bu sərsəm bəyanatına müdafiə naziri Zakir Həsənov AzTV-yə müsahibəsində cavab verərək bildirmişdi ki, artıq 90-cı illər deyil və ermənilərin yeni torpaqlar tutmaq üçün hücuma keçməsini səbrsizliklə gözləyir: "O zaman biz Tonoyanla, yəqin ki, İrəvanda rastlaşmalı olardıq". Bundan nəticə çıxaran Tonoyan bildirdi ki, onlar müharibə arzulamır: "Azərbaycanın hərbi-siyasi rəhbərliyi ordunu sülhə hazırlamalıdır". Müdafiə Nazirliyi mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı isə buna cavab olaraq diqqətə çatdırdı ki, ordumuz sülhə yox, savaşa hazırdır: "Dünyada elə bir dövlət yoxdur ki, onun ordusu sülhə hazırlaşsın. Orduların vəzifəsi sülhə yox, məhz müharibəyə hazır olmaqdır… Ermənistanın hərbi-siyasi rəhbərliyi birdəfəlik anlamalıdır ki, yalnız torpaqlarımızı işğaldan azad etdikdən sonra Ordumuz sülh haqqında düşünə bilər. İndiki şəraitdə isə Azərbaycan ordusu sülhə yox, müharibəyə hazırdır".

Azərbaycanın bu xəbərdarlıqlarından lazımi nəticə çıxarmayan Tonoyan yenidən bəyan edir ki, Azərbaycan hərbi əməliyyatlara başlasa, o zaman erməni silahlı qüvvələri "təkcə B nöqtəsinə deyil, C, D, E nöqtələrinə də zərbə endirəcək". Məsələyə yenidən münasibət bildirən polkovnik Vaqif Dərgahlı qeyd edir ki, Ermənistan müdafiə nazirinin səsləndirdiyi növbəti sərsəm fikirlər heç bir normal məntiqə sığmayan, anormal düşüncəli şəxsin sayıqlamasına bənzəyir: "Ermənistan hakimiyyətini təmsil edən bu şəxsin beynəlxalq terrorçulara bənzər tərzdə çıxış etməsi, bu məntiqlə davranaraq dinc əhaliyə qarşı açıq-aydın təhdid dolu fikirlər səsləndirməsi xaosun məhz rəsmi İrəvanın hazırkı rəhbərliyində mövcud olduğunu sübut edir. İşğalçı ölkənin müdafiə nazirinin son çıxışları Nikol Paşinyan hakimiyyətinə qarşı yönəlmiş və David Tonoyanın gələcək siyasi karyerası üçün hesablanmış hiyləgər planın bir hissəsidir. Ermənistan rəsmilərinin səsləndirdikləri müharibə hədəsi ilə dolu təhdidləri ciddi qəbul etməyən Azərbaycan ordusu torpaqlarımızı işğaldan azad etmək üçün döyüşə tam hazırdır".

Baş verənləri şərh edən Rusiyanın "reqnum" portalı da yazır ki, Ermənistanın hərbi müstəvidə Azərbaycan qarşısında özünü öyməsi sadəcə gülüncdür: "Bu günlərdə Ermənistanın hökumət başçısının mətbuat xidməti, Ermənistanın baş naziri Nikol Paşinyanın müdafiə naziri David Tonoyanla birlikdə Gümrü şəhərinə gedərkən bu şəhərdə yerləşən Rusiya Müdafiə Nazirliyinin 102-ci hərbi bazasını ziyarət etdiyi barədə məlumat verdi. Bazanın komandanlığı Ermənistanın baş nazirinə Rusiya hərbi qulluqçuları üçün yaradılan həyat və peşə fəaliyyəti şəraitini təqdim etdi. Nikol Paşinyan hərbi bazanın muzeyini ziyarət edərək təqdim edilən eksponatlarla tanış oldu, fəxri qonaq kitabına qeydlər etdi və sonra Rusiya Silahlı Qüvvələrinin Cənubi Hərbi Dairəsinin xarici obyektinin ərazisində fəaliyyət göstərən kilsəyə yollandı.

Bu məlumatda Rusiya hərbi bazasının rəhbərliyinin baş nazir və müdafiə nazirinə təqdim etdikləri infrastruktur obyektlərinin siyahısı diqqəti cəlb edir, onlara hamam, əsgər klubu, muzey və kilsəni, qısacası, əsgərə qürbətdə olmadığı halda çox çətin olan hər şey göstərildi. Eyni zamanda, bu səfər zamanı Paşinyan və Tonoyana qərargah, idarəetmə və kommunikasiya kompleksi, döyüş texnikalarının saxlama məntəqələri, poliqonlar, təlim sinifləri, arsenallar, yeni silahlar və hər hansı bir özünə hörmət edən hərbçinin, xüsusilə zabit və komandirin qürur məsələsi hesab edilən obyektlərlə tanış olması barədə bir kəlmə də məlumat yoxdur. Buna görə də təəssürat yarandı ki, hərbi baza komandanlığı Cənubi Qafqazda Rusiyanın acılı mütəffiqinə əyani nümunə ilə göstərmək istəyirdi ki, əsgərlər dövlət və onun təyin etdiyi hərbi hakimiyyət tərəfindən özlərinə elementar hörmət qaytarmaq üçün bu yaxınlarda erməni ordusunda baş verən növbəti qalmaqalın tərkib hissəsi kimi komandirlərinə qarşı üsyan etməyə və ya nümayiş keçirməyə məcbur olan ikinci və ya üçüncü növ insanlar kimi deyil, hərbi formada olsalar belə özlərini insan kimi hiss etmək üçün hansı şəraitdə yaşamalıdır.

Rus hərbçiləri Paşinyan və Tonoyana özünə və öz vətəndaşlarına hörmət edən hakimiyyətin müdafiəçilərinə qarşı necə davranmaları və onların normal həyat və uğurlu xidməti üçün hansı şərait yaratmalı olduğu barədə master klass nümayiş etdirdilər. Aydındır ki, erməni ordusu buradakı zabit və əsgərlərin həyat keyfiyyəti standartlarından Ağrıya olduğu qədər uzaqdır, yəni ora heç vaxt çata bilməzlər, yüksək tonlu, lakin uşaq beşiyindəki oyuncaq kimi içi boş siyasi bir bəyanatla çıxış edtdiyiniz zaman təmamilə gülməli görünməmək üçün onlar barədə heç olmasa adekvat təsəvvürə malik olmaq vacibdir. Paşinyan və Tonoyanın Gümrüdəki rus hərbi bazasına səfərinin məzmunu, xüsusilə Ermənistan ordusunun Azərbaycana qarşı yeni təcavüzkar müharibəyə və yeni ərazilərin ələ keçirilməsinə hazır olduğunu vurğulayan Ermənistan müdafiə nazirinin ABŞdakı son bəyanatı fonunda gülünc görünür. Ermənistanın siyasi elitası erməni əsgərinin necə təchiz edilməsini və yuyunmasını təsəvvür etmirsə, onun Azərbaycana qarşı yeni müharibədə ölməyə hazır olmağından necə danışa bilər? Baxmayaraq ki, bəzi erməni əsgərləri üçün döyüş meydanında erkən ölüm kazarmalardakı heyvan kimi yaşayışa yaxşı alternativ kimi görünə bilər. Göründüyü kimi, Ermənistan baş naziri və müdafiə naziri Rusiya ilə hərbi-texniki əməkdaşlıq çərçivəsində Gümrüdəki 102-ci bazada müvəffəqiyyətlə ordu karantin ekspress kursunu müvəffəqiyyətlə keçiblər, onları burada şəxsi gigiyena vasitələrindən istifadə etməyi və əsgərin gündəlik həyatında çox əhəmiyyətli olan digər məsələləri (məsələn, boyunağı tikmək) öyrədiblər ki, onlar yeni əldə etdikləri biliklər erməni silahlı qüvvələrini modernləşdirməsi və Azərbaycana qarşı yeni döyüşlərdə hazırlamaq üçün istifadə edə bilsinlər. Hər kəs əsgəri çəkmə geyməyi öyrənə bilməz, amma hər kəs rahat divanda oturaraq ətirli Azərbaycan çayı ilə müharibə haqqında müzakirə apara bilər. Bu baxımdan, "Baharın 17 anı" filmindən bir epizod yaddaşda canlanır, Müller rolunu ifa edən Leonard Bronevoy əfsanəvi fraza işlədir: "Bizim rəhbərlərimiz bəzən gündəlik iş praktikası olmadığı üçün özlərini fantaziyaya qapılmasına imkan verirlər. Rəhbər göstərişlərini isə sirkdə əhilləşdirilən meymun da verə bilər. Cənab Tonoyana isə sovet tərbiyəsinin olmaması səbəbindən bu boşluğu doldurmaq və ordunun əsgərləri üçün kifayət qədər alt paltarı olmadığı zaman müharibəni qazanmaq haqqında danışmağın əxlaqsız və mənəviyyatsız addım olduğunu başa düşməsi vacibdir. Gümrüdəki Rusiya hərbi bazasını ziyarət etdikdən sonra nəhayət bunu başa düşdüyünə ümid edirik". Rusiya portalında səslənən bu fikirləri "İnsan haqları naminə jurnalistlər" ictimai təşkilatının sədri Janna Aleksanyan və Helsinki assosiyasiyasının vəkili Ara Qaraqözyan da bölüşür. Ara Qaraqözyan konkret olaraq əsgər Artur Hakobyanla bağlı baş verən hadisəni xatırlatmaqla qeyd edib ki, cinayət işi uzun müddətdir davam edir: "Artur iddia edir ki, 1 ildən artıq xidmət etdiyi dövr ərzində mütəmadi olaraq işgəncələr nəticəsində psixi sağlamlıq problemləri əmələ gəlib. Onu Kanazdakı hospitala təxliyyə edib, daha sonra tərxis ediblər. Kassssiya məhkəməsinin qərarından sonra prokurorluq işi yenidən açdı. Lakin prokurordan mənə daxil olan cavabda bildirilir ki, mənim iddiam əsassızdır və cinayət işini xüsusi istintaq xidmətinə göndərilməsi rədd edilir".

O əmindir ki, kassasiya qərarından sonra yenə də cinayət işini gizlətməyə, örtbasdır etməyə çalışırlar. Bildirilir ki, Artur Hakobyanın xəstəliyi irsidir. Belə olan halda onu necə orduya aparmaqları barədə yaranan suala cavab verən yoxdur. İstintaq işini aparan Gorus qarnizonu prokurorluğu bu məsələni araşdırmaq niyyətində deyil. Vəkil Qaragözyan cinayət işinin gizlədilməsi yolu ilə xitam veriləcəyinə əmin olduğunu bildirir.

Janna Aleksanyan da Artur Hakobyanın məsələsinə toxunarkən bildirib ki, hospitalda ona baş çəkərkən pis vəziyyətdə olan Artur Hakobyan fasiləsiz hansısa zabitin adını təkrarlasa da, həmin zabit dindirilməyib. Ermənistan Müdafiə Nazirliyi isə baş verən hadisələrin araşdırılmasında maraqlı deyil, məqsədi zabitlərini məsuliyyətdən yayındırmaqdır. Aleksanyan milliyyətcə yezidi Yuri Broyanın işini xatırlatmaqla qeyd edib ki, hərbi hospitalda olan hərbi qulluqçunun işi yerində sayır: "Heç bir irəliləyiş yoxdur. Həmin hadisəni araşdırmağa başlayarkən heç bir müalicə getmirdi. O danışa bilmirdi, indi müalicə gedir, qismən danışa bilir. Xəstə əsgərlərin səhhətinin bərpa edilməsi üçün hospitalda heç bir ciddi müalicə aparılmır, Müdafiə Nazirliyi maraqlanmır".

Janna Aleksanyan digər hadisələri yada salaraq, Armen Ozanyanın yüksək təzyiq altında və mərkəzi sinir sistemi pozğunluğu ilə orduya çağırıldığını qeyd edib: "Ermənistan ordusunda baş verən özbaşınalığa, işgəncə və zorakılıq hallarının aradan qaldırılmasına dövlət iradə nümayiş etdirib, orduya diqqət ayırmalıdır, ancaq bunu görmək olmur. Nə qədər qətl və özünəqəsd ola bilər?". Janna Aleksanyan son zamanlar müşahidə etdiklərinə əsaslanaraq qeyd edir ki, Ermənistan Müdafiə Nazirliyi təmamilə məsuliyyətdən yayınır: "İnqilabdan sonra təmamilə biganə olublar, inqilab orduya təsir etməyib". O, belə vəziyyətdə bu ordu ilə Azərbaycanı hədələməyin mənasız bir məşğuliyyət olduğunu da etiraf edib. İndi erməni tərəfini maraqlandıran əsas məsələ bütün bunların ölkə rəsmiləri, əsas etibarı ilə müdafiə naziri tərəfindən nəzərə alınmasıdır. Əks təqdirdə onları Azərbaycan ordusunun başa salması qaçılmaz olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Tariximizin mühüm səhifələrinin öyrənilməsi çağdaş tarixşünaslığın qarşısında duran vacib vəzifələrdən biridir. Qüdrətli Azərbaycan hökmdarı, sərkərdəsi Nadir şah Əfşar öz şəxsiyyəti, fəaliyyəti ilə hər zaman tədqiq edilməyə, öyrənilməyə ehtiyac duyulan dövlət xadimidir.**

# Yunus Oğuz "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən görkəmli sərkərdə" adlı beynəlxalq elmi konfransda sanballı çıxış etməyə hazırlaşır

*"Arzum budur ki, konfrans iştirakçılarına "Nadir şah" romanını bağışlaya bilim"*



Nadir şah Əfşarın irsi, onun dövlətçiliyimizin formalaşmasında oynadığı əvəzsiz rol yenidən tədqiq edilməli, bugünkü və gələcək nəsillərə çatdırılmalıdır. Artıq bu istiqamətdə yeni işlər həyata keçirilir.

İyunun 19-dan 21-dək Bakı şəhərində "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən görkəmli sərkərdə" mövzusunda beynəlxalq elmi konfrans keçiriləcək. Sözügedən konfransın təşkilatçıları Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutu və Türkiyə Cümhuriyyəti Dünya Avşarlar Dərnəyinin Azərbaycan şöbəsidir.

Bildiyimiz kimi, Nadir şah Əfşar mövzusunu uzun illərdən sonra yenidən ədəbiyyatımıza "Olaylar" qəzetinin və eyni adlı informasiya agentliyinin rəhbəri, tanınmış yazıçı-dramaturq Yunus Oğuz tarixi faktlar əsasında yazdığı "Nadir şah" əsəri ilə gətirib.

Yunus Oğuzla əlaqə saxlayıb onun həm keçiriləcək konfransla bağlı fikirlərini, həm də həmin tədbirdə iştirak edib-etməyəcəyini öyrənmək istədik. Y.Oğuz bildirdi ki, sözügedən konfransın keçirilməsi nadirşahşünaslıq üçün əlamətdar hadisədir. Onun sözlərinə görə, bu onu göstərir ki, artıq Nadir şahın fəaliyyəti dərindən öyrəniləcək və təbliğ olunacaq. "Çox şadam ki, nəhayət, bu məsələyə bu şəkildə diqqət yetirilir. Mən "Nadir şah" romanını 2007-ci ildə yazmışam. Yaxşı ki, yavaş-yavaş Azərbaycan xalqı, dünya türkləri, Afşarlar, Qacarlar artıq Nadir şahın qiymətini verməyə başlayırlar. Hesab edirəm ki, bundan sonra dərsliklərdə Nadir şahın zülmkar, qaniçən bir obrazda təqdim edilməsini də aradan qaldıracaqlar. Demək istəyirəm ki, bir romanın təsiri artıq 12 ildən sonra özünü göstərdi. Nəhayət, "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən görkəmli sərkərdə" adlı beynəlxalq elmi konfrans keçirirlər. Bu çox vacib bir məsələdir. Digər tərəfdən, bu konfransın böyük elmi, tarixi əhəmiyyəti var. Nadir şahın ölümündən sonra onun haqqında XVIII, XIX, XX, XXI əsrlərdə saysız əsər, kitablar yazılıb. Düzdür, Nadir şah haqqında ayrıca bədii film çəkilməsə də, digər filmlərdə adı xatırlanıb. Təbii ki, Nadir şahla bağlı araşdırmaların yüksək səviyyəyə gətirilməsi hökmən lazımdır. Çünki ki, o, parçalanmış Azərbaycanı, Səfəvilər, qızılbaşlar torpağını yenidən birləşdirdi. Bu çox mühüm hadisədir. Bu gün bizim Qarabağ mübarizəmiz başa çatmayıb. Nadir şahın göstərdiyi şücaətlərin, çobanlıqdan şahənşah tituluna qədər ucalan bir şəxsiyyətin irsinin dərindən öyrənilməsi çox vacibdir. Şanlı tarixi keçmişimiz deyəndə o tarixi yaradanlardan biri də Nadir şahdır. Nadir şahla bağlı Tarix İnstitutu tərəfindən, dövlət səviyyəsində yüksək bir beynəlxalq konfransın keçirilməsi təqdirəlayiqdir. Əvvəla onu deyim ki, Nadir şah dövründə həm daxili, həm də xarici məktublaşmalar ana dilimizdə aparılırdı. Onun dövründə bütün əhali türkcə, indiki Azərbaycan dilində danışırdı. Molla Pənah Vaqifin şeyriyyətini necə anlayırıqsa, Nadir şahın dövründə də dilimiz o formada idi. Şah İsmayıl Xətai dövründən başlanan ana dilimizin formalaşması, xalqın formalaşması prosesi Nadir şahın dövründə başa çatdırıldı. Xalq başa düşdü ki, dil olmadan, xalq olmadan, vahid bir hala gəlmədən dövləti idarə etmək olmaz. Nadir şaha sui-qəsddən sonra Azərbaycan torpağı parçalandı, xanlıqlar yarandı, sonradan isə torpaqlarımız tam olaraq param-parça edildi".

"Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən görkəmli sərkərdə" adlı beynəlxalq elmi konfransda iştirak edəcəyini bildirən Y.Oğuz burada elmi deyil, elmi-bədii-publisistik çıxış etməyi planlaşdırdığını dedi. "Mən elmi məruzə etmək niyyətində deyiləm, əslində edə də bilərəm. Lakin hesab edirəm ki, elmi məruzəni alimlər etsinlər. Ancaq istəyirəm ki, "Nadir şah Əfşar: tarixin gedişini dəyişdirən görkəmli sərkərdə" adlı beynəlxalq elmi konfransda Nadir şah haqqında çox sanballı çıxış edim. Arzum budur ki, konfrans iştirakçılarına "Nadir şah" romanını bağışlaya bilim" - deyə Y.Oğuz bildirdi.

"Beynəlxalq konfrans çərçivəsində bir neçə il əvvəl Milli Akademik Dram Teatrında tamaşaya qoyulan "Nadir şah" pyesi də təqdim edilə bilərmi" sualına Y.Oğuz belə cavab verdi: "Hesab edirəm ki, bu məsələni Mədəniyyət Nazirliyi və Tarix İnstitutu reallaşdıra bilər. Çox təəssüf ki, artıq iki ildir Akademik Milli Dram Teatrında "Nadir şah" tamaşasını dayandırıblar. Əslində, bərpa edə bilərlər. Tamaşanın kimin tərəfindən dayandırılmasından xəbərim yoxdur. Həmin tamaşada rol alan aktyorların əksəriyyəti teatrdan uzaqlaşdırıldıqdan sonra bu tamaşa dayandı. "Nadir şah" tamaşası Mədəniyyət Nazirliyinin sifarişi ilə Akademik Milli Dram Teatrında səhnələşdirilib. O tamaşanı bərpa etmək mümkündür. Tamaşa yenidən səhnəyə qayıdarsa və təqdim edilərsə, bu, konfrans iştirakçılarına böyük hədiyyə olardı" - deyə Y.Oğuz bildirdi.

***İradə SARIYEVA***

---

**Qırğızıstanın paytaxtı Bişkekdə Çingiz Aytmatov adına Rus Akademik Milli Dram Teatrının səhnəsində hazırlanmış Hidayətin "Bu dünyanın adamları" tragikomediyası uğurla göstərilir.**

# Hidayətin "Bu dünyanın adamları" Qırğızıstan teatr səhnəsinin uğurlu fəthinə başlayıb

Tamaşanın premyerasından öncə çıxış edən teatrın bədii rəhbəri Akimbek Tekeşov bildirib ki, 1982-ci ildə Hidayətin yazdığı bu qəmli komediya o vaxtlar televiziya tamaşası ilə təqdim edilib, lakin məlum mövcud rejim tamaşanı dərhal bağlayaraq təkrar göstərilməsinə icazə verməyib. Əsərin ən böyük uğurları Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonrakı dövrünə təsadüf edib. Gələn il 150 illik yubileyini qeyd edcək müsəlman Şərqinin ilk peşəkar teatrı - Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində məşhur aktyorların ifasında əsər 116 dəfə oynanıb. Qafqazda ilk rus teatrı olan Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında uzun illər bu tamaşa "Mənzil" adı altında göstərilib. Azərbaycanın digər teatrlarında da uğurla səhnəyə çıxan əsər Türkiyənin məşhur Ankara Bələdiyyə teatrında da səhnələşdirilib.





Tamaşanın quruluşçu rejissoru Valeriy Kraynov, quruluşçu rəssamı Jumabek Bazarbayev, bəstəkar Azərbaycanın xalq artisti Eldar Mansurovdur.

Qırğız Respublikasında akkreditə olunmuş diplomatik nümayəndəliklərin başçıları, Qırğızstanın tanınmış ictimai və mədəniyyət xadimləri, görkəmli ziyalıları, diasporamızın üzvləri, kütləvi informasiya vasitələrinin nümayəndələri tamaşaçılar arasında olub.

Eyni zamanda, Qırğızıstanın İctimai Teleradioyayım Korporasiyasının "Ala-Too 24" proqramında, həmçinin "NTS", "ELTR" televiziya kanallarında da tamaşadan süjetlər nümayiş etdirilib. Ölkənin ən populyar qəzeti olan "Veçerniy Bişkek"də görkəmli jurnalist Nina Nikipirovanın "Maskalar yırtıldı" adlı sanballı məqaləsi, həmçinin Qırğızıstanın "Kabar", "For.kg", "Knews.kg", "24.kg" və digər KİV-ləri bu premyeranı ölkənin mədəni həyatında əlamətdar hadisə kimi təqdim edib.

***Baki-xeber.com***

**Həyata keçirilən sosial-iqtisadi islahatlar, əhalinin maddi rifah halının yüksəldilməsi istiqamətində atılan addımların bu gün cəmiyyətdə böyük məmnunluqla qarşılandığı təkcə ölkədə yox, beynəlxalq miqyasda da açıq etiraf edilir.**

# Azərbaycanda "kölgə iqtisadiyyatı"... 4 ildə onu 5 faiz azaltmağın üsulu...

Belə vəziyyətdə islahatların daha geniş miqyas alması, eyni zamanda bunun əhalinin maddi durumuna daha müsbət təsir göstərməsi üçün diqqət mərkəzində yer alan başlıca məqamlardan biri də ölkədə "kölgə iqtisadiyyatı"nın aradan qaldırılmasına nail olmaqdır. Son dövrlər ərzində bu istiqamətdə genişmiqyaslı işlər görülməsi isə yaxın perspektivdə qeyd olunan istiqamətdə ciddi nailiyyətlər əldə edilməsini istisna etmir.

Proseslər göstərir ki, Azərbaycan "kölgə iqtisadiyyatı" problemini həll etməkdə qərarlıdır və bununla ilgili vergi, eləcə də gömrük sistemində islahatların daha da dərinləşməsi qeyd olunanların əyani təsdiqidir. Bu xüsusda Vergilər Nazirliyi özü də bəyan edir ki, Vergi Məcəlləsinin 300-dən çox maddəsinə edilən dəyişikliyin əksəriyyəti məhz "kölgə iqtisadiyyatı"nın aradan qaldırılmasına yönəldilib. Qurum onu da bildirir ki, 2019-cu il üzrə vergi xidmətinin əsas prioritetləri dəyişməz qalır. Bu, ilk növbədə, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması istiqamətində görüləcək işlərdir. İndilikdə "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması üçün vergidən yayınmanın miqyasının azaldılması, gəlirlərin leqallaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Buraya, ilk növbədə, vergi qanunvericiliyinə edilmiş dəyişikliklər və vergi-gömrük əlaqələndirilməsi yolu ilə uçotun izlənilməsi imkanlarının bərqərar olması, yəni vahid risq platformasının yaradılması daxildir. Eyni zamanda, özəl sektorda çalışan işçilərin əməkhaqqından tutulan gəlir vergisi üzrə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması, əmək müqaviləsi bağlamadan işçilərin işə cəlb olunmasına görə işəgötürənə tətbiq edilən maliyyə sanksiyalarının artırılması, xərclərin sənədlərlə rəsmiləşdirilməməsinə və vergidən azad olunan gəlirlərin sənədləşdirilməməsinə və bəyan edilməməsinə görə maliyyə sanksiyalarının tətbiqi, dövlət orqanları ilə aparılan elektron məlumat mübadiləsinin genişləndirilməsi də görülən tədbirlər sırasında yer alır.

Həmsçinin real vəziyyətin təhlili göstərir ki, aksizli malların istehsalı və satışı, tibbi xidmətlər sektoru, şəbəkə ticarəti kimi sahələrdə nəzarət tədbirləri gücləndirilib. Nəticədə təkcə ötən il vergi orqanlarının iri topdansatış müəssisələrində apardığı vergi nəzarəti tədbirləri zamanı 930 milyon manat, şəbəkə marketləri üzrə 122 milyon manat, özəl tibb xidmətləri sahəsində 230 milyon manatdan çox dövriyyənin gizlədildiyi aşkar olunub. Bu rəqəmlər yalnız vergi orqanlarının nəzarət tədbirlərinə cəlb olunmuş bəzi sektorlardakı vergiödəyicilərini əhatə edir. Bu, milyonlarla manat verginin və sosial ödəmələrin büdcədən yayındırılması deməkdir. Hazırda belə halların qarşısının alınması məqsədilə genişmiqyaslı işlər görülür.



Hazırda "kölgə iqtisadiyyatı"nın miqyasını azaltmaq üçün əsas məsələlərdən biri də nağdsız ödənişlərin həcminin artırılmasına nail olmaqdır. Araşdırmalar da göstərir ki, rəqəmsal ödənişlərin daha çox artımına nail olmaqla, vergi bazasının artımını, eyni zamanda, bank-maliyyə sektorunun gücləndirilməsini təmin etmək mümkündür. Xatırladaq ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilib. Proqram ölkənin nağdsız cəmiyyətə doğru genişmiqyaslı tədbirlər planını ehtiva edir. Sənəddə vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağd dövriyyənin həcminin minimuma endirilməsi və nağdsız ödəniş mühitinin genişləndirilməsi, nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsi strateji məqsəd kimi müəyyən edilib. Qiymətləndirmələrə görə, görülən tədbirlər nəticəsində nağdsız ödənişlərin illik həcmi təqribən 17 milyard manat artacaq. Bu isə nağdsız ödənişlərin payının hər il 7 faiz artmasına imkan verəcək. Nəticədə, bütövlükdə iqtisadi dövriyyələrdə nağd ödənişlərin payı 74 faizdən 40 faizə qədər azalacaq. Nağdsız ödənişlərin genişlənməsindən həm vətəndaşlar, həm də dövlət büdcəsi qazanacaq. Ümumiyyətlə isə, elektron ödəmələrin geniş tətbiqi "kölgə iqtisadiyyatı"nın miqyasını azaltmağa kömək etməklə, onun qarşısını alan ən mühüm amildir. Belə ki, elektron ödəmələrin çoxluq təşkil etdiyi Böyük Britaniya və Qərbi Avropa ölkələrində "kölgə iqtisadiyyatı" çox cüzidir. Araşdırmalara görə, ardıcıl 4 il müddətində elektron ödəmələrin həcminin illik 10 faiz artırılması "kölgə iqtisadiyyatı"nın həcmini 5 faiz aşağı salır. İsveç kimi bir ölkədə restoranlar artıq nağd ödəniş qəbul etmir. Azərbaycanda da "kölgə iqtisadiyyatı"nın səviyyəsinin aşağı salınması üçün nağdsız ödənişlərin daha sürətlə artımı proqnozlaşdırılır.

**Hesab olunur ki, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması Azərbaycanda sahibkarlığın inkişafının daha sürətli hala gəlməsinə təsir göstərməklə yanaşı, əhalinin maddi rifah halının da yüksəlməsinə mühüm töhfə verəcək. Ən əsası isə, yaranmış vəziyyətdə ölkə iqtisadiyyatının inkişafı daha çevik xarakter alacaq.**

***Tahir TAĞIYEV***



# Ziyad Səmədzadə 2018-ci ildə 90 milyon manat vəsaitin səmərəsiz xərcləndiyini deyir

**Hesablama Palatasının 2018-ci ildə apardığı nəzarət tədbirləri nəticəsində 90 milyon manat vəsaitin səmərəsiz xərcləndiyi aşkar edilib.**

Bunu Milli Məclisin plenar iclasında Palatanın ötənilki fəaliyyəti ilə bağlı hesabatın müzakirələrində parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə deyib.

O bildirib ki, dövlət büdcəsinə bərpa edilən vəsaitlərin yaranma mənbələri üzrə strukturda vergi və s. ödəmələr 38,4%, digər istiqamətlər 19,8%, tikinti xərcləri üzrə 17,4%, satınalmalar üzrə xərclər isə 10,7% təşkil edib: "Hesabat ilində bərpa edilmiş vəsaitin 33,5%-i büdcə qanunvericiliyinin pozulması ilə bağlı olub".

Bizim üçün vacib olan maliyyə nəzarətidir. Azərbaycanda maliyyə şokları yaşanmamalıdır. Bir müddət öncə Beynəlxalq Bank məsələsində bunun şahidi olduq.

Deputat Əflatun Amaşov deyib ki, bir sıra hallarda Hesablama Palatasının təklifləri aidiyyəti qurumlar tərəfindən nəzərə alınmır: "Bu, məsuliyyət hissi ilə bağlıdır. Necə edək ki, bu məsuliyyətsizlik aradan qaldırılsın? Onlar hesabatda göstərilən səhvlərini təkrarlamamalıdırlar".

Hər kəsə məlumdur ki, Hesablama Palatası öz imkanları daxilində kifayət qədər fəaliyyət göstərir, hətta bir çox hallarda imkanlarından da kənar fəaliyyət göstərir. Amma strukturda ciddi şəkildə dəyişikliyə ehtiyac var. Yeni sistemə daxil olmalıyıq.

Bunu isə Siyavuş Novruzov parlamentin iclasında Hesablama Palatasının hesabatının müzakirəsi zamanı çıxış edərkən deyib.

Onun sözlərinə görə, bu gün ölkədə struktur islahatları aparılır: "Bu baxımdan Palatanın gələcək fəaliyyətini qanuna əlavə və dəyişikliklər etməklə, həyata keçirilən islahatlar sürətinə gətirib çıxarmalıyıq. Biz gözləməməliyik ki, kimsə 5 il müddətində idarə etdiyi qurumu yeyib dağıtsın, sonra aşkara çıxsın ki, yeyinti var və həmin vəsait büdcəyə geri qaytarılsın. Burada itirən dövlət və insanlardır. Çünki həmin vəsaitlər vətəndaşların sosial rifah halına müsbət təsir göstərə bilər".

S.Novruzov bildirib ki, korrupsiya hallarının vaxtında aşkarlanması üçün Palata tərəfindən hesabatlar 6 aylıq və ya 1 illik olmalıdır: "Aralıq dövrdə ciddi şəkildə monitorinqlər aparılmalıdır. Əgər lazımdırsa, bura kadrlar cəlb olunmalı, korrupsiyaya meylli şəxslər tapılmalıdır. Gələcəkdə bunlar nəzərə alınmalı, bu işləri yeni metodla həyata keçirməliyik. Palataya əlavə dəstək verilməlidir ki, büdcəyə nəzarət edən orqan kimi bu məsələdə bundan sonra da ciddi addımlar atsın".

# Kartof və soğanın ixracına rüsum qoyuldu, bazarlarda qiyməti izləyin...

**Paytaxt Bakı və ölkənin bütün rayonlarında kartof, soğan və kələmin qiyməti bahalaşıb. Hər il yaz aylarında, məhsul qıtlığı mövsümünə düşdüyündən, qiymətlərin bahalaşması müşahidə edilib, lakin bu il bahalıq daha çox müşahidə edildi.**

***Bəşir Quliyev:** "Azərbaycan kartof idxalından imtina etməyi planlaşdırır"*

***Nicat Nəsirli:** "Bu il Azərbaycanda soğanın məhsuldarlığı çox yüksək olacaq"*

Çünki artıq Azərbaycana İrandan kartof, soğan gətirilmir.

Azərbaycan daxili bazarını qorumaq üçün müvafiq addımlar atmalı idi. Məlum olduğu kimi, Nazirlər Kabinetinin qərarı ilə ölkədən bu məhsulların çıxarılmasının iqtisadi cəhətdən səmərəliliyinin təmin edilməsi üçün kartof, soğan ixracına rüsum tətbiq olundu. Soğan və kartofun hər kiloqramına 2 dollar rüsum qoymaqla Azərbaycan, faktiki olaraq, məhsulun daxili bazarda realizə olunmasına iqtisadi maraq yaratdı.

Adıçəkilən tərəvəz məhsullarının qiymətində balans yaratmaq üçün ixracına rüsum tətbiq olunub.

İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 aprel 2019-cu il tarixli qərarı ilə beynəlxalq təcrübəyə uyğun olaraq, həmin məhsulların istehsal mövsümü də nəzərə alınmaqla, kartofun ixracına bu ilin 30 aprelinədək, soğan və kələmin ixracına isə 31 may tarixinədək ixrac rüsumunun tətbiqinə başlanıb.

Habelə soğanın idxalına tətbiq olunan spesifik rüsum həmin müddətədək ləğv edilib. Atılmış bu addım daxili bazarda qiymət sabitliyinin təmin olunmasına, ölkə əhalisinin bu məhsullara olan tələbatının ödənilməsinə xidmət edir. Sahibkarların məhsullarının satışında yarana biləcək çətinliklərin aradan qaldırılması istiqamətində zəruri tədbirlər görüləcək.

**Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının rəhbəri Bəşir Quliyev bildirdi ki, 2018-ci ilin sentyabr-oktyabr aylarında kartof idxalına gömrük rüsumu dərəcəsi artırılıb və bunun hesabına yerli istehsalçılar öz məhsulunu sata bilib:** "Bu gün bu sahəyə böyük maraq var və investisiyalar qoyulur. Lazımi şərait yaradılır, məhsulun saxlanması üçün anbarlar tikilir. Hazırda kartof əsasən Rusiya, Belarus, İran və Türkiyədən idxal, Rusiyaya isə ixrac olunur".



**Aqrar məsələlər üzrə ekspert Nicat Nəsirlinin sözlərinə görə, statistik məlumatlar əsasında Azərbaycanın illik soğana ehtiyacı 160 min tondur, ölkə isə 230 min ton soğan istehsal edir.** Deməli, bizim ehtiyatda 70 min ton soğanımız olmalıdır: "Azərbaycan guya cəmi yeddi min ton soğan ixrac edib. Statistikada müəyyən qeyri-dəqiqlik var. Adi hesablama aparsaq, ölkədən cəmi yeddi min ton soğan ixrac edilibsə, bəs yerdə qalan 67 min ton soğan hanı? Digər maraqlı rəqəmlərdən biri də adambaşına bir azərbaycanlının istehlak etdiyi soğanın həcminin 12 kiloqram göstərilməsidir, bu rəqəmin özü çox gülüncdür. Çünki azərbaycanlıların mətbəxində soğan çox istifadə edilən tərəvəzdir.

Görünür, statistikanın bu vəziyyətindən irəli gələrək, sahibkarlar hələ də ölkədə tələbatı formalaşdıra bilmirlər".

N.Nəsirlinin sözlərinə görə, bazardakı bu artım bir həftəyə səngiyəcək. Çünki hazırda Cəlilabadda kartofun kütləvi yığımı gedir. Təzə kartof 1.50-1.60 manata satılır. Soğan yığımına da başlanıb, lakin kütləvi halda deyil: "Havaların yağışlı keçməsi yetişmə müddətini uzadır. Buna baxmayaraq, uzağı 12-13 günə kütləvi soğan yığımı başlayacaq. **Bu il Azərbaycanda soğanın məhsuldarlığı çox yüksək olacaq. Ona görə də qiymətlər tezliklə düşəcək".**

*Günel CƏLİLOVA*

# MTK-lar mənzil haqlarını qaldırır - "Kristal Abşeron" necə izah verir...

**Sumqayıt şəhəri, 6-cı mikrorayon ərazisində "Kristal Abşeron" MTK tərəfindən inşa olunan binalarda yaşayan sakinlər kommunal xidmət haqlarının artırılmasından şikayətçidirlər. Qeyd olunan ünvanın sakinləri redaksiyamızla əlaqə saxlayaraq "Kristal Abşeron" MTK tərəfindən inşa olunan binalarda kommunal haqların artırılmasından narazı olduqlarını bildirdilər.**

***"Kristal Abşeron" MTK - Anar Ələsgərov:** "Əvvəllər otaq sayına kommunal xidmət haqqı ödənilirdi, ancaq bu aydan etibarən isə..."*

***Ramil Osmanlı:** "Təəssüf ki, idarəedici təşkilatlar, xüsusilə mənzil-tikinti kooperativləri sakinlərin rəyini nəzərə almır, hətta yığılan xidmət haqlarının hara və necə sərf olunması ilə bağlı heç bir hesabat vermək istəmirlər"*

Sakinlər qeyd edirlər ki, əvvəllər mənzilin hər 1 kv.m-nə görə 20 qəpik ödəyirdilərsə, indi bu qiymət 30 qəpiyə qaldırılıb: "Yaşayış kompleksində mənzilləri olanlar "Kristal Abşeron" MTK-nın qiymət artımına etiraz ediblər. Qiymət artımı "Kristal Abşeron"da mənzili olan hər bir ailənin büdcəsinə ciddi təsir göstərir. Təbii ki, qiymət artımı ailələrdə əlavə problemlər yaradır".

Mənzil sahibləri problemlərinin bununla da bitmədiyini, qiymət artımının qarajlara da tətbiq olunduğunu dilə gətirirlər. Sakinlər bildirirlər ki, əvvəllər qaraja görə 30 manat ödəyirdilərsə, bu aydan qiymət 50 manata qaldırılıb.

**Məsələni dəqiqləşdirmək üçün "Kristal Abşeron" MTK-la ilə əlaqə saxladıq. MTK-nın 6-cı mikrorayon ərazisində olan binalarının komendantı Anar Ələsgərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, "Kristal Abşeron"un binalarında kommunal xidmət haqqı otaq sayına görə hesablanıb:** "Məlumat üçün bildirim ki, 1 otağa görə 10 manat, 2 otağa görə 15 manat, 3 otağa görə 20 manat verirdilər. Ancaq bu aydan etibarən isə sakinlər hər 1 kv.m-ə görə kommunal xidmət haqqı ödəməli olacaqlar. Bu kompleksdə 400 mənzil var və hər birinə şirkət tərəfindən yüksək xidmət göstərilir. Onların ödədiyi xidmət haqqına zibilin daşınması, blokların işıqlandırılması, təmizlik işlərinin aparılması, liftdən istifadə daxildir. Biz bu barədə sakinlərlə dəfələrlə söhbət etmişik və razılıq əldə etməyə çalışırıq".



Qaraj qiymətinin 30 manatdan 50 manata qaldırılmasına gəlincə, A.Ələsgərov bildirdi ki, əvvəlcədən müqavilə əsasında 30 manat razılaşdırılıb və qiymət dəyişikliyi edilməyib.

**Daşınmaz əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qanunvericiliyə əsasən, kommunal xidmət haqqı barədə qərar mütləq şəkildə sakinlərin ümumi yığıncağında qəbul olunmalıdır:** "Təəssüf ki, idarəedici təşkilatlar, xüsusilə mənzil-tikinti kooperativləri sakinlərin rəyini nəzərə almır, hətta yığılan xidmət haqlarının hara və necə sərf olunması ilə bağlı heç bir hesabat vermək istəmirlər. Bu da, nəticə etibarilə, narazılıqların yaranmasına səbəb olur".

Həmsöhbətimiz hesab edir ki, sakinlər bununla bağlı qanunvericilikdə nəzərdə tutulmuş qaydada aidiyyəti qurumlara məlumat verməlidirlər. Sakinlər istəsələr, birgə yığıncaq çağırıb yeni idarəedici təşkilat yarada bilərlər.

*Günel CƏLİLOVA*

# Suraxanıdakı 1 saylı peşə məktəbində məskunlaşmış köçkünlərlə komitə arasında nə baş verir...

**Məlumdur ki, dövlət tərəfindən yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlərə xüsusi qayğı və diqqət göstərilir. Onlar dövlət tərəfindən mənzillə təmin olunur, sosial müavinəti artırılır, problemlərinin həll olunması istiqamətində lazımi işlər görülür.**



*"Ən qəzalı, həyat üçün təhlükəli şəraitdə yaşayan məcburi köçkün ailələri ilk növbədə yeni mənzillərlə təmin edilirlər"*

***İbrahim Mirzəyev:** "Suraxanı kənd 1 saylı texniki peşə məktəbində məskunlaşmış məcburi köçkünlər mərhələli şəkildə yeni mənzillə təmin ediləcəklər"*

Bəllidir ki, məcburi köçkünlər üçün şəhərciklər salınır. Prezidentin müvafiq sərəncamı ilə məcburi köçkün ailələri hissə-hissə mənzillə təmin olunurlar. Bu istiqamətdə hələ də işlər görülür. Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün dövlət tərəfindən müəyyən layihələr həyata keçirilir. Görülən işlərə baxmayaraq, bir qisim məcburi köçkün hələ də yataqxana, məktəblərdə yaşayır.

Bu günlərdə köhnə Suraxanı kənd 1 saylı texniki peşə məktəbində məskunlaşmış məcburi köçkünlər mənzillə təmin edilmək tələbi ilə etiraz aksiyası keçiriblər. Sakinlər bildirirlər ki, bir neçə ay əvvəl Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin (QMKİDK) sədri Rövşən Rzayev onlarla görüşən zaman məcburi köçkünlərin Kürdəxanı qəsəbəsində mənzillə təmin ediləcəklərini bildirib. Məcburi köçkünlər hətta gedib mənzillərin yerləşdiyi əraziyə də baxıblar. Sonradan nə olubsa, mənzil bölgüsü zamanı onlara mənzil verilməyib. Sakinlərə "sizə mənzil Qobu qəsəbəsində veriləcək" deyə məlumat veriblər.

Ancaq sakinlər Qobu qəsəbəsində yaşamaq istəmirlər. Onlar qeyd edirlər ki, "bizə ev veriləcəksə, Kürdəxanı, Məhəmmədi ərazilərində verilsin".

Suraxanı kənd 1 saylı texniki peşə məktəbində məskunlaşmış məcburi köçkünlərin mənzillə təminatı və onların köçürülməsi istiqamətində nə kimi işlərin görüləcəyini öyrənmək məqsədilə **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat katibi İbrahim Mirzəyevə müraciət etdik.**

O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, məcburi köçkünlərin yeni mənzillə təminatı hər zaman Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzindədir: "Yeni tikilən mənzillər Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarına əsasən, Dövlət Proqramı və ona edilmiş əlavələrdə göstərilən konkret köçürülmə obyektləri üzrə həyata keçirilir. Bundan başqa, ən qəzalı, həyat üçün təhlükəli şəraitdə yaşayan məcburi köçkün ailələri ilk növbədə yeni mənzillərlə təmin edilirlər. Bu obyektlər Dövlət Komitəsində yaradılmış işçi qrupu və komissiyanın hərtərəfli və şəffaf araşdırması nəticəsində müəyyən olunur. Mənzillə əlaqədar müraciətlər işçi qrupu tərəfindən araşdırılır, nəticələr komissiyaya təqdim edilir. Komissiyanın rəyi Dövlət Komitəsinin sədrinə təqdim edilir və müvəqqəti məskunlaşma obyektlərinin köçürülməsi barədə qərar qəbul olunur. Qeyd etdiyiniz ünvanda yaşayan məcburi köçkünlər də mərhələli şəkildə yeni mənzillə təmin ediləcəklər".

***Günel CƏLİLOVA***

# Sabunçu-Maştağa yolundakı "Ayxan" market yol hərəkətini iflic edir...

**Bakının bəzi ərazilərində təəssüflər olsun ki, tıxac problemi həllini tapmır. Görülən bir sıra tədbirlərə baxmayaraq, sözügedən məsələ çözülmür. Ötən müddət ərzində müasir standartlara cavab verən çoxsaylı yol çəkilib.**




*"Bir sıra hallarda market açanlar, nədənsə, avtomobillərin park edilməsi məsələsini nəzərə almırlar"*

***Azər Allahverənov:** "Sözügedən marketin qabağında avtomobillər nəinki birinci zolağı, hətta ikinci zolağı belə zəbt edirlər"*

Hətta elə yerlər var ki, maşınların müxtəlif istiqamətlərdə hərəkətinə imkan verən körpülər də inşa olunub. Ancaq yeni tikilməsinə baxmayaraq, görürsən ki, yolun hansısa hissəsində müəyyən məsələlərin nəzərə alınmaması tıxacın yaranmasına səbəb olur. Bu da, öz növbəsində, yolda hərəkət intervalının pozulmasına gətirib çıxarır.

Bir neçə il əvvəl Sabunçu-Zabrat yolu əsaslı təmir edildi. Həmçinin, Sabunçu-Zabrat yolunun Heydər Əliyev prospekti ilə kəsişməsində nəqliyyat şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra işlər görüldü. Eyni zamanda, sözügedən ərazidə piyadalar üçün yerüstü keçid tikildi. Nəticədə sözügedən yolun həmin hissəsində tıxac azaldı. Ancaq bütün bunlar son nəticədə Bakı kəndlərinə hərəkət edən avtomobillərin tıxac probleminin həllinə gətirib çıxarmadı. Problem ondadır ki, Zabrat qəsəbəsində yolun sağ hissəsində fəaliyyət göstərən "Ayxan" market pik saatlarda, faktiki olaraq, hərəkəti iflic edir. Çünki adıçəkilən ticarət mərkəzi yola məsafəcə çox yaxındır. Ən başlıcası isə avtomobillər üçün nəzərdə tutulan parkovka yeri çox balacadır. Nəticədə markete gələnlər avtomobillərini sekilərin kənarında parkovka edirlər. Hər gün saat 18-dən sonra "Ayxan" marketin qarşısında tıxac yaranır. Bu da avtomobillərin hərəkət intervalını pozur. Sürücü və sərnişinlər saatlarla tıxacda qalmalı olurlar. Bəzən elə olur ki, Sabunçu dairəsindən "Ayxan" marketə qədər tıxac olur. Yəni o dərəcədə uzun tıxac yaranır. Səbəbi də sözügedən marketlə bağlıdır.

Bakının bir sıra kənd və qəsəbələrinə gedən avtobuslar Zabrat qəsəbəsindən keçirlər. Belə ki, Kürdəxanıya, Məhəmmədiyə, Maştağaya, Buzovnaya, Nardarana, Pirşağıya, Bilgəhə, Daş karxanasına, Savalana gedən avtobus və digər avtomobillər Zabratdan keçirlər. Nəzərə alsaq ki, Buzovna ilə Nardaran məsafəcə daha uzaqda yerləşirlər, o zaman bunun vaxt baxımından sözügedən qəsəbə sakinləri üçün nə demək olduğunu təsəvvür etmək çətin deyil.

Adətən hansısa avtomobil nəzərdə tutulmayan yerdə saxlandıqda görürsən ki, buna görə avtomobil sahibini cərimələyirlər. Maraqlıdır, müvafiq qurumlar "Ayxan" marketin yaratdığı böyük tıxac barədə məlumatlıdırlarmı? Bununla bağlı hansısa tədbirlərin görülməsi nəzərdən keçirilirmi?

Sözügedən məsələ ilə əlaqədar ilk əvvəl Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi ilə əlaqə saxladıq. Qurumun mətbuat katibi Anar Nəcəfli bildirdi ki, sözügedən yolda yaranan vəziyyətə onların qurumu baxmır. Yənin onların bu məsələyə hər hansı aidiyyəti yoxdur.

**Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, "Ayxan" marketin qarşısında park edilən avtomobillər yolu əhəmiyyətli dərəcədə daraldırlar:** "Nəticədə həmin ərazidə böyük tıxac yaranır. Sözügedən marketin qabağında avtomobillər nəinki birinci zolağı, hətta ikinci zolağı belə zəbt edirlər. Bəzi hallarda da elə olur ki, markete müxtəlif ərzaq məhsulları gətirən ekspeditorlar gəlirlər. Bu zaman sıxlıq daha kritik səviyyədə olur. Görürsən ki, bir istiqamətdə dördzolaqlı yol az qala birzolaqlı yola çevrilir. Bu da həmin istiqamətdə hərəkəti iflic edir. Saatlarla tıxaclara səbəb olur. Bu onu göstərir ki, "Ayxan" marketin yerləşdiyi əraziyə nəzarət, demək olar ki, yox səviyyəsindədir. Bakının müxtəlif yollarında müşahidə kameraları var. Hansısa tıxac yarananda müvafiq qurumlar vəziyyəti nəzarətdə saxlayırlar. Ancaq Zabrat qəsəbəsində yerləşən sözügedən marketin yaxınlığında belə müşahidə kameraları yoxdur. Hesab edirəm ki, belə vasitələr olsa, parkovka zamanı yaranan probleme tez müdaxilə etmək olar. Məsələn, avtomobil zolaqdan kənar saxlandıqda dərhal müdaxilə etmək olar. Avtomobil sahibləri cərimələnsə, növbəti dəfə maşını orada saxlamazlar. Çox təəssüflər olsun ki, Zabrat qəsəbəsində yolboyu çoxsaylı market fəaliyyət göstərir. Bu da nəqliyyatın normal hərəkətinə mane olur. Bir sıra hallarda market açanlar, nədənsə, avtomobillərin park edilməsi məsələsini nəzərə almırlar. Nəticədə belə xoşagəlməz vəziyyət yaranır. Xüsusən də pik saatlarda yaranan tıxaclar dözülməz dərəcədə yorucu olur. Zabrat qəsəbəsində digər problem isə işıqforların intervalı ilə əlaqədardır. Görürsən ki, elə yer var orada avtomobillərin axını çoxdur, amma işıqforun vaxt intervalı çox azdır. Bu da tıxacın yaranmasında müəyyən rol oynayır. Hesab edirəm ki, işıqforlarda vaxt intervalı artırılmalıdır. Bütün bunlar kompleks şəkildə həll edilsə, orada tıxac olmaz".

***Vidadi ORDAHALLI***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**ATAYEV NAMİQ MƏNSİM oğlu**



5 yanvar 1964-cü ildə Azərbaycan Respublikasının Kəlbəcər rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Kəlbəcər rayonunun Kilsəli kəndində yaşamışdır. Kəlbəcər RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Atayev Namiq Mənsim oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 2 aprel 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Atayev Namiq Mənsim oğlu 2 aprel 1993-cü il tarixində Kəlbəcər rayonunun Nadirxanlı kəni ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralanaraq döyüş bölgəsində qalmışdır və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Atayev Namiq Mənsim oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ATAYEV RAFİQ YAQUB oğlu**



1 iyun 1973-cü ildə Azərbaycan Respublikasının Ağdam rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Ağdam rayonunun Çəmənli kəndində yaşamışdır. Ağdam RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Atayev Rafiq Yaqub oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 4 iyul 1993-cü ildə Xocalı rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Atayev Rafiq Yaqub oğlu 4 iyul 1993-cü il tarixində Xocalı rayonunun Xramort (indi Pirlər) kəndi ərazisində Kökəltmə məntəqəsi adlanan yerdə erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı ağır yaralanaraq döyüş bölgəsində qalmışdır və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Atayev Rafiq Yaqub oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AYDINOV MAHİR BİLAL oğlu**



9 sentyabr 1973-cü ildə Azərbaycan Respublikasının Samux rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Samux rayonunun Salahlı kəndində yaşamışdır. Samux RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aydınov Mahir Bilal oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 19 sentyabr 1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aydınov Mahir Bilal oğlu 19 sentyabr 1992-ci il tarixində Laçın rayonunun Xırmanlar kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Aydınov Mahir Bilal oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AYDINOV RAMİZ MƏMMƏDİYYƏ oğlu**



5 mart 1971-ci ildə Azərbaycan Respublikasının Şəki rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Şəki rayonunun Baş Layski kəndində yaşamışdır. Şəki RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aydınov Ramiz Məmmədiyə oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 19 noyabr 1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aydınov Ramiz Məmmədiyə oğlu 19 noyabr 1992-ci il tarixində Laçın rayonunun Fingə kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Aydınov Ramiz Məmmədiyə oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Bakı-Gəncə-Bakının gediş qiyməti optimallaşdı, bəs digər nəqliyyat növlərinin qiymətinə baxılacaqmı...




*"Digər nəqliyyat növlərinin də qiymətlərinin endirilməsi məsələsinə baxıla bilər"*

## *Ruslan Atakişiyev: "Bu sahədə qiymətlərin endirilməsi, yaxud tənzimlənməsi bazarın tələbinə uyğun şəkildə həyata keçirilməlidir"*

**Məlum olduğu kimi, Bakı-Gəncə-Bakı sürətli sərnişin qatarında gediş haqqı endirilib.**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən bildirilənə görə, Bakı-Gəncə-Bakı sürətli sərnişin qatarının biznes yerlərinə Bakıdan-Gəncə-Bakı istiqamətində gediş haqqı 08.04.2019-cu il tarixdən etibarən 50 manatdan 25 manata endirilir.

Bakı-Gəncə-Bakı sürətli sərnişin qatarının qiymətlərinin yarıya endirilməsi nəqliyyat sahəsində atılan müsbət addım kimi dəyərləndirilir. Ekspertlər qeyd edirlər ki, bu ölkə daxilində digər nəqliyyat növlərinin qiymətlərinin də endirilməsi aktuallaşdırılır.

Ölkə daxilində müxtəlif istiqamətlərə işləyən qatarların, təyyarələrin, eləcə də paytaxt daxilində fəaliyyət göstərən metro, avtobus kimi digər nəqliyyat növlərinin qiymətləri hansı həddə qədər endirilməlidir ki, ölkəyə iqtisadi cəhətdən ziyan dəyməsin və bunun əhaliyə də faydası olsun?

Bakı-Gəncə-Bakı sürət qatarının qiyməti optimallaşdırıldı, digər nəqliyyat növlərinin də qiymətinə baxılacaqmı?

İqtisadçı Ruslan Atakiyev baki-xeber.com-a bildirdi ki, bütün nəqliyyat növlərinin qiymətləri dövlət tərəfindən tənzimlənmir. R.Atakişiyevin sözlərinə görə, xüsusən də təyyarə və qatarların qiymətləri formalaşdırılan zaman tələb və təklifin öyrənilməsinə çox böyük ehtiyac var. "Yəni ki, nə qədər sərnişin mövcud qiymətdə getmək istəyir. Qiymətlərdə azalma baş verirsə və həmin istiqamətdə sərnişin sayı çoxalırsa, təbii ki, qiymətləri endirilməsinə ehtiyac var. Lakin hər hansı bir nəqliyyat növünün həcminə uyğun olaraq sərnişinlər həmin nəqliyyat növü ilə gedirsə burada qiymətlərin endirilməsinə ehtiyac yoxdur. Ona görə də bu sahədə qiymətlərin endirilməsi, yaxud tənzimlənməsi bazarın tələbinə uyğun şəkildə həyata keçirilməlidir. Bəli, bu gün bizim elə bölgələrimiz, şəhərlərimiz var ki, orada nəqliyyat növünün qiyməti sərnişinləri qane etmədiyinə görə onlar ondan istifadə etmir. Ancaq bəzi hallarda qiymətlərin endirilməsi də bu sahələrdə xidmət göstərənlərə sərf etmir. Həmin xidməti göstərənlərin də xərcləri, maya dəyəri var. Əgər qiymətlər maya dəyərinə yaxın, yaxud ondan aşağı olursa onda sahibkar, yaxud müəssisə həmin xidməti göstərmək istəmir. Belə olduğu halda da qiyməti endirməkdənsə həmin xidməti göstərməməyə daha çox üstünlük verirlər".

R.Atakişiyev həmçinin qeyd etdi ki, digər nəqliyyat növlərinin də qiymətlərinə baxılmalıdır. Onun sözlərinə görə, bu məsələ bazarın tələb və təkliflərini öyrənməklə mümkün ola bilər:"Bakı-Gəncə-Bakı sürət qatarının gediş haqqının endirilməsi onu deməyə əsas verir ki, digər nəqliyyat növlərinin də qiymətlərinin endirilməsi məsələsinə baxıla bilər. Bu da, dediyim kimi, konkret olaraq hər bir nəqliyyat növü üzrə bazarın tələb və təkliflərini öyrənmək nəticəsində baş verə bilər. Düşünürəm ki, bütün hallarda müxtəlif nəqliyyat növlərinin qiymətlərinin endirilməsi məsələsi nəzərdə saxlanmalıdır. İqtisadi cəhətdən müəyyən qədər çətinlik törətsə də, sosial-siyasi baxımdan qiymətlərin endirilməsi əhəmiyyətlidir".

***İradə SARIYEVA***

# Mobil internet "can verə-verə" işləyir - mühüm ərəfədə Azərbaycana turist axınına mane olan səbəblərdən biri...

**Azərbaycanda mobil internetin yarıtmaz vəziyyətdə olması faktdır. Bunun nəticəsində də son zamanlar bu xidmətlə bağlı müştərilər arasında narazılıqlar yaranıb. Ümumiyyətlə, həm mobil, həm də alternativ internet imkanlarından istifadə sahəsində ciddi problemlər yaranıb.**

*"Hesab edirəm ki, mobil internet sahəsində müvafiq tənzimləyici qurum bu işlərə ciddi münasibət bəsləməlidir"*

***Osman Gündüz:** "... adambaşına düşən internet sürətinin həcmi azdır"*



Ölkə daxilində mövcud olan bu vəziyyət sözsüz ki, ölkəmizə gələn turistlərin də bu xidmətdən normal şəkildə yararlanmasına əngəl törədir. Qarşıdan Azərbaycanda keçiriləcək bir sıra beynəlxalq tədbirlər gəlir. Bu ay paytaxt Bakıda "Formula Qran-Pri" yarışları keçiriləcək, ondan bir müddət sonra isə futbol üzrə turnir başlayacaq. Hər iki tədbirdə iştirak etmək üçün isə paytaxtımıza dünyanın dörd bir yanından turistlər, xarici qonaqlar gələcəklər. Əlbəttə, həmişə onlar bir yerdə dayanmayacaqlar, şəhərimizi gəzib dolaşmaq istəyəcəklər, onlara mobil internetdən yararlanmaq gərək olacaq. Bu halda, paytaxtda normal mobil internetin olmaması, istər-istəməz, narahatlıq doğuracaq. Bu sahədə indidən tədbirlər görülməsə, onların internet xidməti ilə təmin olunmasında problem yaranacağı şübhəsizdir.

Bu gün paytaxtın elə yerləri var ki, orada mobil internet tamamilə iflic vəziyyətdədir. Qeyd olunan problem, eyni zamanda, alternativ internet xidməti göstərən provayderlərin fəaliyyətində də özünü göstərir. Bəzən saatlarla ofislərdə internet müəyyən kəsintilərlə verilir, yaxud da tamamilə internetə qoşulmaq olmur, bu da sözsüz ki, narahatlıq doğurur.

**İKT üzrə tanınmış ekspert Osman Gündüz "Bakı-Xəbər"ə bildirdi ki, mövcud problemin aradan qaldırılması üçün aidiyyəti qurumlar təxirəsalınmaz tədbirlər görməyə başlamalıdırlar.** "Mənə elə gəlir ki, burada situasiya ilə bağlı daha dəqiq məlumat əldə etmək üçün ciddi bir monitorinq aparmaq doğru olardı. Yəni bəzən özüm də müşahidə edirəm ki, hansısa bir ərazidə yetərincə keyfiyyətlə mobil internet xidməti əldə edə bilmirəm. Monitorinqlərin nəticələrinin aşağı, yaxud yuxarı olmasından asılı olmayaraq, tənzimləyici qurum həmişə bu monitorinqi keçirməlidir. Ölkəmizdə tənzimləyici qurum funksiyasını Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yerinə yetirir. Düzünü deyim ki, nazirliyin mobil operatorların keyfiyyəti, bunların lisenziya tələblərinə əməl etməsi ilə bağlı apardığı işlər də qənaətbəxş deyil. Yəni mən hələ bir dəfə eşitməmişəm ki, nazirlik keyfiyyətlə əlaqədar olaraq hər hansı bir monitorinq aparsın və bura ekspertləri, tərəfsiz təşkilatları cəlb etsin. İnandırıcı, sanballı bir monitorinq aparsın ki, bu sahədə vəziyyət nə yerdədir. Özüm bunu dəfələrlə yoxlamışam ki, nazirliyin binası ətrafında operatorların təqdim etdiyi sürəti almaq mümkün deyil. Bu belədirsə, onda bu, başqa yerdə necə olacaq? Ona görə də hesab edirəm ki, mobil internet sahəsində müvafiq tənzimləyici qurum bu işlərə ciddi münasibət bəsləməlidir. Bəzən eşidirik ki, nazirlik monitorinq keçirib, ancaq nəticəsindən heç kəsin xəbəri olmur. Bu səbəbdən də düşünürəm ki, nazirlik ciddi kriteriyalar hazırlamalı, ərazilər müəyyən olunmalı və vəziyyətlə əlaqədar monitorinqlər aparılmalıdır. Əlbəttə, qarşıdan böyük beynəlxalq əhəmiyyətli idman yarışları gəlir, bu yarışlara ciddi hazırlaşmaq lazımdır. Bunun üçün də gərək tənzimləyici qurum öz infrastrukturunu yeniləsin, internetin həcmini artırsın. Baxırsan ki, "Azercell" şəbəkəni genişləndirdi, istifadəçilərin sayını artırdı" yazırlar, ancaq diqqət yetirəndə onun aldığı internet trafikinin həcminin artmadığını görürsən. Bu necə ola bilir? Sürət artırsa, istifadəçilərin sayı artırsa, aldığı internetin də həcmi artmalıdır".

Alternativ internet vasitələrinə gəlincə, O.Gündüz qeyd etdi ki, bu problem bütün provayderlərdə var. O.Gündüzün sözlərinə görə, hələlik Azərbaycanda internet keyfiyyətsizdir. "Beynəlxalq təşkilatların da hesabatlarına baxanda görürük ki, ümumiyyətlə, adambaşına düşən internet sürətinin həcmi azdır, bizdə bu sahədə vəziyyət qənaətbəxş deyil. Bizdə bu, kifayət qədər aşağı rəqəmdir. Bu onunla bağlıdır ki, bizdə genişzolaqlı fiberoptik internetlə bağlı problem var. Bu da yenə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin apardığı qüsurlu siyasətlə bağlıdır. Fiberoptik interneti yalnız nazirlik özü çəkə bilir. Yəni yeraltı quyular ki, var, ona kabel kanal sistemi deyirik. Həmin sistemdən özəl provayderlər istifadə edə bilmirlər. Bundan yalnız iki dövlət qurumu - "Baktelekom" və "Aztelekom" istifadə edir, 35-40 özəl provayder bu quyulara yaxın buraxılmır. Nazirliyin də resursları azdır, onlar nə vaxta bu fiberoptik interneti çəkib qurtaracaqlar. Burada da vəziyyətdən çıxış yolu ondan ibarətdir ki, nazirlik kanal sistemindən özəl və dövlət provayderlərinin bərabər şəkildə istifadəsi üçün qaydalar müəyyən etməlidir. Uzun müddətdir ki, bu qaydaları gözləyirik, ancaq yoxdur, bundan yalnız özləri istifadə edirlər" - deyə O.Gündüz qeyd etdi.

***İradə SARIYEVA***

# Bu videokadrlar Azərbaycan gömrük orqanlarına aid deyil...

**Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin məlumatına görə, sosial şəbəkələrdə stasionar rentgen qurğusundan əşyaları ilə birlikdə keçən şəxsin videotəsvirləri yayımlanıb və şəbəkə istifadəçiləri yanlış olaraq bunun Azərbaycan gömrük xidmətinin tabeliyindəki qurumlardan birində baş verdiyini iddia edərək gömrük orqanlarının ünvanına əsassız ittihamlar irəli sürür.**

Dövlət Gömrük Komitəsi bildirir ki, hadisə Azərbaycan Respublikası ərazisindəki gömrük-sərhəd buraxılış məntəqələrində baş verməyib.




**Bu, videotəsvirlərdə əks olunan şəxslərin üzərindəki rəsmi geyim formasından da aydın görünür və kadrların lentə alındığı məkanın ölkəmizin gömrük orqanlarına aidiyyəti yoxdur.**

***Baki-xeber.com***

# "Diqlas"da 86 sahibkarın malı artıq çıxarılıb - Aktlaşdırılır, zərər dəymiş mallar isə...

**Yanğın baş verən "Diqlas" ticarət mərkəzindən 86 sahibkarın malları artıq çıxarılıb. "Trend"in məlumatına görə, bu sözləri iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov deyib.**

Hadisə yerində olan S.Məmmədov bildirib ki, artıq 3 gündür köç prosesi başlayıb: "Bildiyiniz kimi, yanğın hadisəsi Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən nəzarətə götürülmüşdü. Hazırda mallar ticarət mərkəzindən çıxarılır. İndiyə qədər 86 sahibkarın malları çıxarılıb. Hər bir çıxan mal aktlaşdırılır, yararlı mallar akt əsasında sahibkara təqdim olunur, zərər dəymiş mallar isə xüsusi ayrılmış anbara göndərilərək qiyməti dəqiqləşdirilir".



Nazir müavininin sözlərinə görə, malların daşınması üçün bütün qüvvələr səfərbər olunub: "Sahibkarlara nəqliyyat vasitələri ayrılıb və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları cəlb olunublar ki, mallar tez bir zamanda buradan köçürülsün".

Ticarət mərkəzinin söküntüsü ilə bağlı qərar isə yaxın vaxtda ictimaiyyətə açıqlanacaq.

## "Azercell"in dəstəyilə "Onbranch" startapı "Seedstars World" müsabiqəsində iştirak edib

**"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi daha bir beynəlxalq tədbirə qatılıb. 2018-ci ildə ölkəmizdə keçirilən "Seedstars World" müsabiqəsinin qalibi "Onbranch" startapı ilə birlikdə mərkəz "Seedstars Sammiti"ndə iştirak edib. İsveçrənin Lozanna şəhərində baş tutan tədbirdə 75 ölkədən startap komandaları, hökumət nümayəndələri, investorlar, yaradıcı insanlar, həmçinin, nüfuzlu şirkətlərin mentorları iştirak ediblər.**

Maliyyə, səhiyyə, təhsil, kənd təsərrüfatı və enerji sahələrində mövcud olan qlobal problemləri həll etmək məqsədilə keçirilən sammitdə Afrika, Latın Amerikası, Asiya, Şərqi Avropa və Orta Şərqi təmsil edən 64 ən uğurlu startap layihəsi 500 000 ABŞ dolları dəyərində sərmayə yatırımı qazanmaq uğrunda mübarizə aparıb. Nəticədə Argentinanı təmsil edən "Blended" startapı "Seedstars Sammiti"nin qalibi seçilib.

Məlumat üçün bildirək ki, "Seedstars World" regional məsələlərin həllini hədəfləyən, onların regional bizneslərinə və inkişafına dəstək vermək məqsədilə qlobal bazar üçün gəlirli və davamlı məhsullar hazırlayan bacarıqlı startaplar axtarışındadır. Tədbirin keçirilməsində məqsəd inkişaf etməkdə olan ölkələrdə mövcud olan, xüsusilə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun həllər istiqamətində fəaliyyət göstərən sahibkarları üzə çıxarmaqdır.

Qeyd edək ki, informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələri və yaranmaqda olan startapları dəstəkləyərək onların müstəqil şirkət kimi inkişaf etməsinə kömək edən Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi İsveçrənin "Seedstars" şirkəti ilə yaxından tərəfdaşlıq edir və 6 ildir ki, "Seedstars Baku" müsabiqəsinin yerli təşkilatçısıdır.

Fəaliyyətinin 10 illiyini qeyd edəcək Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi "Azercell" və "PAŞA Bank"ın dəstəyilə Azərbaycanda sahibkarlıq ekosisteminin inkişaf etdirilməsi istiqamətində bir sıra uğurlara imza atıb. Ölkənin ilk biznes inkubatoru olan mərkəz startapların inkişafının hər bir mərhələsində onlarla işləyir, uğur qazanmaq üçün lazım olan vəsaitlər, resurslar və biliklərlə təmin edir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

# BAKI XƏBƏR

№ 63 (3961) ■ Qiymətі: 40 qəpik

10 APREL 2019-cu il

www.baki-xeber.com




# Azərbaycanda qədim nekropolda maddi mədəniyyət nümunələri aşkarlandı

**Goranboyda Son Tunc-erkən dəmir dövrünə aid nekropolda maddi mədəniyyət nümunələri aşkar olunub.**

"Trend" bildirir ki, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Tunc və ilk dəmir dövrü arxeologiyası şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Müzəffər Hüseynovun rəhbərlik etdiyi ekspedisiya Goranboy rayonu ərazisində arxeoloji tədqiqatlar aparır. Arxeoloji tədqiqatlar Goranboy rayonunun Səfikürd kəndi ərazisində Qarasu dərəsinin sağ sahilində yerləşən Qarasu dərəsi nekropolunda aparılır. Son Tunc-erkən dəmir dövrünə aid nekropolda aparılan tədqiqatlar zamanı zəngin maddi mədəniyyət nümunələri aşkar edilib. Qazıntılar zamanı qəbirdən bir ədəd böyük küp, 3 ədəd orta həcmli küp və bardaq, metal əşyalar, çoxsaylı bəzək nümunələri və yanmış sümük qalıqları tapılıb. Tunc və dəmirdən hazırlanan məişət əşyalarına bıçaqları və iynəni, bəzək əşyalarına isə tunc və müxtəlif minerallardan hazırlanan qolbaqları, asma bəzəkləri, muncuqları və s. aid etmək olar. Ekspedisiya, həmçinin Goranboy rayonu ərazisində yeni kurqanları qeydə alaraq rayon ərazisində mövcud olan abidələrin siyahısına daxil edib.

## Elan

Şəki rayonu, Çapağan kənd sakini Həmidov Həzi Məmmədəli oğlunun adına verilmiş 4040J0014 saylı həyətyanı torpağın şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Qədəşov Səbuhi Hacıvəli oğlunun adına, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən 12 sot torpaq sahəsinin mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 20376) itdiyi üçün etibarsız sayılır.

Qədəşova Dilşad Rza qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən 12 sot torpaq sahəsinin mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 20403) itdiyi üçün etibarsız sayılır.

Nağıyeva Lyubov Petrovnaya məxsus, Binəqədi rayonu, M.Rəsulzadə qəsəbəsi, Cəfər Cabbarlı küçəsində yerləşən evə verilmiş şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Əliyev Rəşad Məşdi oğlunun adına, Binəqədi rayonu, M.Rəsulzadə qəsəbəsində yerləşən torpaq sahəsinin Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən verilmiş sərəncamı itdiyi üçün etibarsız sayılır.

Həbibova Xanım Bədirxan qızına Abşeron rayonu, Xırdalan şəhəri, 27-ci məhəllə, ev 2, mənzil 51 ünvanına verilmiş №1263 qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həsənov Rafiq Sədixan oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Goradil bağlarında yerləşən № 1974 bağ sahəsinin çıxarışı (seriya RX № 0332710) itdiyi üçün etibarsız sayılır.

Fətullayeva Ceyranxanım Əhmədağa qızının adına, Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal Ş/Bünyadzadə küçəsi, ev 12, mənzil 73 ünvanına "SAS" MTK tərəfindən verilmiş müqavilə № 104 və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

İsmayılzadə Samir Malik oğluna Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, "İmam Hüseyn" məscidi dini icmasının 100110A1-239 saylı, 01.03.2010-cu il tarixli şəhadətnaməsi və dini icmaya məxsus nizamnamə itdiyi üçün etibarsız sayılır.



## İsveç alimləri şəffaf ağac ixtira ediblər

**Kral Texnologiya İnstitutunun (Stokholm) alimləri yeni material - şəffaf ağac ixtira ediblər.**

"ICTnews" bildirir ki, yeni material plastik və ya şüşəni əvəz edə bilər. Alimlər bildiriblər ki, şəffaf ağac yalnız yüksək sıxlığa və şəffaflığa malik deyil, həm də istiliyi özündə saxlaya bilir. Yeni material ən müxtəlif sahələrdə (məsələn, binaların enerji səmərəliyinin yüksəldilməsi) tətbiq oluna bilər.

## 54 ilə saçını 5 metr uzatdı...

**Çinin Sıçuan vilayətinin sakini, 77 yaşlı Ake İçjen öz saçı ilə fəxr edə bilər. "Ölkə.az" bildirir ki, qadının saçının uzunluğu 5,5 metrdir və "Ginnesin rekordlar kitabı"na əsasən, dünyanın ən uzun saçı sayılır.**

"Oddity Cen" nəşrinin xəbərinə əsasən, İçjen 23 yaşından saçını kəsdirmir. O, bu dövrdə uzun saçın uğurlu həyata və sağlamlığa təsir etdiyini düşündüyü üçün bu addımı atıb. Amma bu gün yaşlı qadın etiraf edir ki, saçını daşımaqdan artıq yorulur və uzun saçları ona çox narahatçılıq yaradır. Qadın saçını həftədə iki dəfə peşəkar saç ustalarının yardımı ilə yuyur. Prosedur isə ən azı 3 saat vaxt aparır.







**Qoç** - Gələn məlumatlar, alınan informasiyalar yoxdur. Prosesə süni təkan verərək hadisələri səbəbsiz şəkildə sürətləndirməyin heç bir mənası yoxdur. Maraqlı təsir bağışlasa da, əlavə iş və ya öhdəlik aramayın.



**Buğa** - Təmaslar, görüşlər və alınan xəbərlərin sayı artacaq. Müzakirələr aparmaq olar. Amma şəraitin sürətlə dəyişən nüanslarını, tərəfdaşlarla şəriklərin niyyətlərini və istəklərini nəzərə alın.



**Əkizlər** - Günün ilk yarısında praktik, praqmat olun. Yaxşı tanımadığınız, bələd olmadığınız insanlara maliyyə yardımı ilə bağlı vədlər verməyin. Pulla bağlı öhdəlikləri unutmayın. Yaşama ifrat nikbin baxmayın.



**Xərçəng** - Günün ilk yarısında müxtəlif olayların mozaikasında çaş-baş qalmayın. Şəraitə uyğun olaraq planları sürətlə dəyişməyə hazır olun. Uğur qazanmağınıza yalnız ətrafınızda yaşanan hadisələrə həddən artıq emosional münasibət mane ola bilər.



**Şir** - Əla gündür. İşlərinizlə məşğul olmaqla yanaşı, planlarınızı təkmilləşdirməyi unutmayın. Enerji səviyyəniz yüksələcək. Günün ikinci yarısında tərəfdaşlarınızla çalışaraq məqsədə çata bilərsiniz.



**Qız** - Mövqeləriniz aktiv, yaşam prinsipləriniz dəyişməz olmalıdır. Yeniliklər pis deyil. Fərqli, maraqlı fəaliyyət istiqamətni seçə bilərsiniz. Problemlərin həllində yaradıcı, orijinal metodları seçin.



**Tərəzi** - Yaxın ətrafınızdakı insanların istəklərini anlamağa çalışın. Bu, o qədər də çətin deyil. Kollektivdə mühüm xəbər eşidəcəksiniz. Yaxın günlərlə bağlı maddi perspektivlərinizi müəyyənləşdirin.



**Əqrəb** - Şərait gərginləşir. Aldığınız informasiyalara diqqət yetirin. Yazışmada diqqətli olun. Perspektivdə mövqelərinizi möhkəmləndirəcək bəzi detalların aşkarlandığı zamandır. Güzəştə meylli olun.



**Oxatan** - Hadisələr sürətlənir. Tənbəl və süst olmayın. Görüləsi işlərin sayı da artır. Heç nəyi təxirə salmayın, proseslərin adi iştirakçısına dönməyin. Effektini dərhal görə biləcəyiniz işlər indi xüsusilə aktualdır.



**Oğlaq** - İşləri ertələməyin. Önəmli məsələlərin həllini təxirə salmayın. Problemləri çözmək üçün qarşı tərəflə danışıqlar aparmaq, razılaşmalara nail olmaq gərəkdir. Tərəfdaşlarla münasibətlərinizin ciddi təftişə ehtiyacı var.



**Dolça** - Bol emosiyalar və təəssüratlar vəd edən zamandır. Sosial baxımdan aktiv olmaq gərəkdir. İnformasiya axtarışına daha çox vaxt ayırın. Ünsiyyət çevrənizi məhdudlaşdırmayın.



**Balıqlar** - Diqqətiniz bütünlüklə konkret işlərə yönəlməlidir. Bəzi sahələrdə sürətlənmək gərəkdir. Sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə məşğulsunuzsa, yeni layihəyə başlayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## İnsult keçirmiş insanların bərpası üçün əlcək hazırlandı

**Corciya Texnologiya İnstitutunun və Stenford Universitetinin alimləri tərəfindən hazırlanmış əlcək insult keçirmiş insanlarda əllərin işləmək bacarığını bərpa etmək qabiliyyətinə malikdir.**

"ICTnews" bildirir ki, alimlərin həlli vibrasiyanın təsirinə əsaslanır. Hər gün qurğu bir neçə saat ərzində pasiyentin biləyini azacıq stimullaşdırır ki, bu da sinir sonluqlarının oyanmasına, həssaslıq və hərəkətedici funksiyaların bərpasına imkan yaradır. "İdeya ondan ibarətdir ki, istifadəçilər gündəlik ev işlərini görərkən hər gün əlcəyi bir neçə saatlıq taxsınlar" - sözügedən həllin həmmüəlliflərindən biri, Corciya Texnologiya İnstitutunun tələbəsi Keytlin Seym deyib. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hər il dünyada 15 milyon nəfər insult keçirir. Beyinin qan dövranının kəskin pozulması insan orqanizminə dağıdıcı təsir göstərir. İnsult keçirmiş bir çox insanlar danışmaq və sərbəst hərəkət etmək qabiliyyətini itirirlər.

*Hazırladı: Ramil QULİYEV*


Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.



Reklam mətninə görə qəzet məsuliyyət daşımır.